RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 121 (8714) ŞƏNBƏ, 12 iyun 2021-ci il

Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur

www.azerbaijan-news.az



## Azərbaycanın və Türkiyənin birgə layihəsi




## 3 il əvvəl istifadəyə verilən TANAP Avropanın da enerji təhlükəsizliyinə xidmət edir

**TANAP (Trans-Anadolu Qaz Boru Kəməri) 2018-ci il iyunun 12-də Türkiyədə, Əskişəhərdə Azərbaycan, Türkiyə, Serbiya, Ukrayna prezidentlərinin, Şimali Kipr xalqı liderinin və digər rəsmi şəxslərin iştirakı ilə istifadəyə verilib. Türkiyəyə ilk qaz həcmlərinin nəqli planlaşdırıldığı vaxt - həmin il iyunun 30-da başlayıb. Fəaliyyətə başladığı vaxtdan indiyədək bu kəmərlə Türkiyəyə 10,6 milyard kubmetrdən çox qaz nəql edilib.**

TANAP-ın salnaməsi qısa da olsa, zəngin və maraqlıdır. Belə ki, layihə ilə bağlı Azərbaycan və Türkiyə arasında anlaşma memorandumu 2011-ci il dekabrın 24-də imzalanıb. Boru kəməri sisteminə dair sazişə isə 2012-ci il iyunun 26-da İstanbulda imza atılıb və hər iki ölkənin müvafiq qanunverici orqanları tərəfindən təsdiqlənib. Bununla da Azərbaycan və Türkiyə siyasi rəhbərliyinin fəaliyyəti nəticəsində TANAP-ın tikintisi ilə bağlı razılıq əldə edilib. Qazın uzunmüddətli sazişlər əsasında Avropa İttifaqı ölkələrinə ixrac edilməsi üçün mühüm danışıqlar aparılıb, TANAP-ın və TAP-ın (Trans-Adriatik Qaz Boru Kəməri) inşasına dair sənədlər imzalanıb. 2015-ci il martın 17-də Türkiyənin Qars vilayətinin Selim rayonunda Azərbaycan, Türkiyə və Gürcüstan prezidentlərinin iştirakı ilə TANAP-ın təməli qoyulub. İstifadəyə verildiyi vaxtdan təxminən il yarım sonra - 2019-cu il noyabrın 30-da TANAP-ın qazı Avropa sərhədinədək çatdıran ikinci fazasının çəkilişi yekunlaşıb.

Təsadüfi deyil ki, TANAP-ın açılış mərasimində bu kəmərin işə düşməsi mühüm tarixi hadisə kimi dəyərləndirildi. Çünki bu, Azərbaycanın təkcə neft diyarı deyil, həm də qaz ixrac edən ölkə olduğunu bir daha təsdiqlədi. TANAP-ın uğuru, eləcə də Azərbaycanın təşəbbüsü və liderliyi ilə həyata keçirilən "Cənub qaz dəhlizi"nin bütövlükdə müvəffəqiyyətlə başa çatacağına bir zəmanət idi. TANAP Azərbaycan və Türkiyənin, hər iki ölkənin dövlət başçılarının birgə səyi nəticəsində gerçəkliyə çevrilən unikal layihə olduğuna görə bu birliyini və qardaşlığı bir daha nümayiş etdirdi.

Prezident İlham Əliyev kəmərin əhəmiyyəti barədə belə demişdir: "TANAP-ın istismara verilməsi Türkiyə-Azərbaycan qardaşlığının növbəti təzahürüdür. TANAP Türkiyə ilə Azərbaycanın növbəti zəfəridir. TANAP tarixi layihədir. Bu gün biz XXI əsrin enerji tarixini birlikdə yazırıq. Bu tarix işbirliyi tarixidir, bu tarix sabitlik tarixidir. Enerji layihələrimiz bölgəmizə sabitlik gətirir. Bu layihələrdə iştirak edən bütün ölkələr, bütün şirkətlər fayda görür, xalqlar fayda görür".

Xəzərin Azərbaycan sektorundakı "Şahdəniz" yatağının işlənməsinin ikinci mərhələsi çərçivəsində çıxarılan qazı nəql edən TANAP Türkiyə-Gürcüstan sərhədində genişləndirilmiş Cənubi Qafqaz Boru Kəmərinə (CQBK) qoşulub. Xatırladaq ki, CQBK "Cənub qaz dəhlizi"ni yaradan üç kəmərdən birincisidir, uzunluğu Azərbaycanın ərazisində 443, Gürcüstanda 248 kilometrdir. CQBK-nın yolunu Türkiyədə 1850 kilometrdən çox məsafə boyu TANAP davam etdirir. Bu kəmərin Gürcüstan-Türkiyə sərhədi - Əskişəhər hissəsinin uzunluğu 1350, Əskişəhər - Türkiyə-Yunanıstan sərhədi hissəsinin uzunluğu 480 kilometrdir. Xəttin 19 kilometri isə Mərmərə dənizindən keçir. TANAP öz marşrutu boyu Türkiyənin 20 vilayətini, o cümlədən Ərdəhan, Qars, Ərzurum, Gümüşhanə, Ərzincan vilayətlərini arxada qoyur. 878 kilometrlik TAP kəmərinə isə Türkiyə ilə Yunanıstanın sərhədindəki Kipoi məntəqəsində qovuşur. Bir tərəfdən CQBK-ya, digər tərəfdən TAP-a bağlandığı üçün TANAP-ı "Cənub qaz dəhlizi"nin "birləşdirici halqəsi" də adlandırırlar.

*Ardı 6-cı səh.*

## Böyük Britaniya və Şimali İrlandiyanın Kraliçası Ülyahəzrət II Elizabetə

Ülyahəzrət!

Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının milli bayramı - Təvəllüd Gününüz və 95 illik yubileyiniz münasibətilə Sizə və bütün xalqınıza şəxsən öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi və xoş arzularımı yetirməkdən məmnunluq duyuram.

Siz böyük bir tarixi dövrü özündə əks etdirən zəngin və dərin məzmunlu ömür yolu keçmiş, bütün həyat və fəaliyyətinizi doğma ölkənizin rifahına həsr etmiş, xalqınıza şərəflə və ləyaqətlə xidmət etmisiniz. XX əsrin ikinci yarısından bu günədək Birləşmiş Krallığa başçılıq edərək daim öz prinsiplərinizə sadiqliyiniz, əzmkar və yorulmaz fəaliyyətiniz, Vətəninizə olan hədsiz bağlılığınız və məhəbbətiniz bütün dünyada Sizə böyük nüfuz və rəğbət qazandırmışdır.

Bu gün Azərbaycan ilə Birləşmiş Krallıq arasında münasibətlər müvəffəqiyyətlə inkişaf edir, dostluq əlaqələrimiz gündən-günə genişlənir. Dövlətlərarası münasibətlərimizin formalaşmasında, hərtərəfli inkişafında və bugünkü səviyyəyə yüksəlməsində Sizin böyük rolunuz vardır.

İnanıram ki, dərin kökləri olan və möhkəm təməllər üzərində qurulmuş bu əlaqələr, bir sıra mühüm sahələrdə əməkdaşlığımız bundan sonra da ardıcıl olaraq inkişaf edəcək və genişlənəcəkdir.

Ülyahəzrət!

Bu əlamətdar gündə Sizi bir daha ürəkdən təbrik edir, möhkəm cansağlığı, xoşbəxtlik, dost Birləşmiş Krallığın rifahı naminə fəaliyyətinizdə uğurlar diləyirəm.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 11 iyun 2021-ci il*

## Azərbaycan-Rusiya münasibətləri möhkəm dostluq və qarşılıqlı dəstək ənənələrinə əsaslanır



### Rusiya Federasiyasının Prezidenti zati-aliləri cənab Vladimir Putinə

Hörmətli Vladimir Vladimiroviç!

Dövlət bayramınız - Rusiya Günü münasibətilə Sizi və Sizin şəxsinizdə dost Rusiya xalqını ürəkdən təbrik edirəm.

Rusiya Federasiyası dövlət quruculuğu, davamlı sosial-iqtisadi inkişaf və ictimai həyatın bütün sahələrinin modernləşdirilməsində böyük yol keçmiş və əhəmiyyətli uğurlar qazanmışdır. Bu gün Sizin ölkəniz dünyada gedən proseslərin nüfuzlu iştirakçısı olaraq aktual çağırışlara və təhdidlərə qarşı mübarizədə mühüm məsələləri həll edir, qlobal və regional sülhün, təhlükəsizliyin dəstəklənməsinə vacib töhfə verir.

Azərbaycan ilə Rusiya arasında möhkəm dostluq, mehriban qonşuluq və qarşılıqlı dəstək ənənələrinə əsaslanan münasibətlərin dinamik və uğurlu inkişafı xüsusi məmnunluq doğurur. Ölkələrimizin ən geniş məsələlər spektri üzrə ikitərəfli konstruktiv dialoqunu və səmərəli əməkdaşlığını da qeyd etmək istərdim.

Biz 2020-ci il 10 noyabr və 2021-ci il 11 yanvar tarixli üçtərəfli bəyanatlara nail olunmasında və onların həyata keçirilməsində Rusiya Federasiyasının vasitəçilik səylərini yüksək qiymətləndiririk. Əminəm ki, xalqlarımızın və ölkələrimizin rifahı, regionda sabitliyin, əməkdaşlığın və tərəqqinin təmin olunması naminə Azərbaycan-Rusiya strateji tərəfdaşlığı və çoxplanlı qarşılıqlı fəaliyyəti yeni məzmun ehtiva edərək bundan sonra da səmərəli inkişaf edəcək və dərinləşəcəkdir.

Hörmətli Vladimir Vladimiroviç, bu bayram günündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik və uğurlar, bütün rusiyalılara isə əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 11 iyun 2021-ci il*

## Moskvanın və Bütün Rusiyanın Patriarxı zati-müqəddəsləri Kirillə

Zati-müqəddəsləri!

Bakı və Azərbaycan Yeparxiyasının arxiyepiskopu Aleksandrın vəfatı barədə xəbər bizi dərindən kədərləndirdi.

Arxiyepiskop Aleksandrın fədakar əməyi, parlaq vaizlik istedadı, Azərbaycan-Rusiya dostluğunun, konfessiyalararası həmrəyliyin və tolerantlığın möhkəmləndirilməsinə böyük şəxsi töhfəsi ona haqlı olaraq müxtəlif millətlərin və dini etiqadların nümayəndələri arasında dərin hörmət qazandırmışdır. Onun xatirəsi qəlbimizdə daim yaşayacaq.

Zati-müqəddəsləri, bu kədərli anlarda ağır itki ilə əlaqədar dərin hüznlə başsağlığımızı qəbul edin.

*Hörmətlə,*

***İlham ƏLİYEV və Mehriban ƏLİYEVA***

*Bakı şəhəri, 11 iyun 2021-ci il*

## İlham Əliyev Qarabağın qədim məktəblərini bərpa edir



**"Onlar oxumağa həvəs göstərirlər və mən Şuşada olarkən, Məhəmməd dininə mənsub çoxlu uşağın hökumətin icazəsilə orada sakin olan Bazel missionerlərinin rəhbərliyi altında alman dilində məşğul olmasına valeh oldum"... Bu sözləri 1830-cu illər ərəfəsində Azərbaycanın bir sıra şəhərlərində olmuş general-adyutant Sipyagin yerli əhalinin dünyəvi məktəblərə meyil göstərməsindən bəhs edərək yazmışdı...**

### 191 yaşlı təhsil ocağı

XIX əsrin 30-cu illərinə qədər xüsusi imtiyazlı məktəblərdən başqa Azərbycanda dövlət tərəfindən açılmış heç bir kütləvi xalq məktəbi yox idi. Yalnız Şuşada Bazel missionerləri tərəfindən 1827-ci ildə açılmış bir məktəb mövcud idi ki, burada da əsasən alman dili tədris edilirdi və həmin məktəbdə bir çox müsəlman uşaqları böyük həvəslə alman dilini öyrənirdilər.

Nəhayət, 1829-cu il avqustun 2-də mərkəzi hökumət Cənubi Qafqaz məktəblərinin ilk nizamnaməsini təsdiq etdi. Bununla Azərbaycanda qəza məktəbləri adı altında ilk dövlət məktəblərinin - təhsilin əsasən rus dilində verildiyi dünyəvi təhsil müəssisələrinin əsası qoyuldu.

Bu qəza məktəblərindən ilki, 191 il əvvəl - 1830-cu il dekabrın 30-da Şuşada fəaliyyətə başladı.

*Ardı 4-cü səh.*

## Silahı kamera və mikrofon olanlar

### Onlardan 9 nəfəri şəhidlik zirvəsinə yüksəlib

**Müharibə hansı peşənin sahibi olmasından, cinsindən, irqindən asılı olmayaraq, hamıya təsir göstərir. Ölkəsində müharibə gedirsə, onu hər kəs yaşayır, sadəcə kimisi az, kimisi çox, kimisi yaxından, kimisi nisbətən uzaqdan.**

Müharibə bəzilərinin qanını, bəzilərinin isə göz yaşlarını axıdır. Yaponlar deyirlər ki, müharibəni bilməyən, sülhü də bilməz. Dahi Viktor Hüqoya görə, sülh bəşəriyyətin xilası, müharibə isə onun cinayətidir. Başqa bir dahi J. Lakorderin fikrincə, azadlıq uğrunda hər cür müharibə müqəddəsdir, işğalçı isə lənətə layiqdir.

Mövzunu hansı istiqamətə çəkirsən çək, fərq etmir, Vətən müharibəsi müqəddəs savaş idi. Biz işğalçını torpağımızdan çıxarmaqla sülh yaratmalıydıq. Bunun üçün müharibə lazım idi və bunu etdik. Ona görə də xalqın elə bir zümrəsi yox idi ki, müharibədən kənarda qalsın, onun qəhrini çəkməsin. Qəhrini çəkdik ki, övladlara, gələcək nəslə Azərbaycanı paramparça deyil, bütöv, qürurlu, qalib ölkə kimi təhvil verək.

*Ardı 4-cü səh.*

◆ Jurnalist araşdırması

## Ölmüş bədən başqalarına yeni həyat verə bilər

### Orqan transplantasiyasına ölkəmizdə böyük zərurət olsa da, maarifləndirmə işi hələ çox zəifdir

*"Transplantasiyaya həm mənim, həm də iki yaş böyük qardaşımın ehtiyacı var idi. Hər ikimiz hepatitə yoluxduğumuzdan qaraciyərimizdə serroz yaranmışdı. Anam hər ikimiz üçün donor olmaq istəyirdi, amma maddi imkansızlıq səbəbindən qardaşım Kamranı əməliyyat etdirə bilmədik. Həmin vaxt mənim də vəziyyətim çox ağır idi. Qardaşım öləndən bir ay sonra iş adamlarının köməyi, anamın donorluğu ilə əməliyyat olundum".*

Bu sözləri söyləyən Rəhman Əhmədov transplantasiya əməliyyatının sayəsində ölümün çəngindən xilas ola bilib.



Xəstəliklə mübarizə aparan 33 yaşlı Kənan Məmmədov isə 7 ildir donor axtarır. Deyir ki, anası onun donoru olmaq istəsə də, yaşı 55-dən yuxarı olduğundan həkimlər buna icazə vermirlər:

*Ardı 5-ci səh.*



# Birinci vitse-prezident Mehriban Əliyeva Bakı və Azərbaycan Yeparxiyasının arxiyepiskopu Aleksandrın vəfatı ilə əlaqədar başsağlığı verib

**Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva rəsmi "Instagram" səhifəsində Bakı və Azərbaycan Yeparxiyasının arxiyepiskopu Aleksandrın vəfatı ilə əlaqədar paylaşım edib.**

AZƏRTAC xəbər verir ki, paylaşımda deyilir:

"Bakı və Azərbaycan Yeparxiyasının arxiyepiskopu, zatimüqəddəsləri Aleksandr səmimi, mehriban, genişürəkli insan idi. Peşəsinə hədsiz sədaqəti, multikultural dəyərlərin inkişafında və konfessiyalar və sivilizasiyalar arasında dialoqun genişləndirilməsi sahəsindəki xidmətləri ona Azərbaycanda böyük sevgi və hörmət qazandırmışdır. Onun nurlu xatirəsi hər birimizin qəlbində əbədi yaşayacaqdır. Bu hüznlü gündə Uca Tanrıdan ona rəhmət, doğmalarına və yaxınlarına səbir diləyirəm!"

# Aleksandr Gennadyeviç İşein



Azərbaycanın pravoslav xristian icmasına ağır itki üz vermişdir. Tanınmış din xadimi, Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyasının arxiyepiskopu, Rus Pravoslav Kilsəsinin Şuralararası İdarəsinin üzvü Aleksandr Gennadyeviç İşein 2021-ci il iyun ayının 10-da ömrünün 69-cu ilində vəfat etmişdir.

Aleksandr İşein 1952-ci il iyunun 13-də Rusiyanın Yaroslavl şəhərində anadan olmuşdur. Moskva Ruhani Seminariyasını bitirdikdən sonra o, uzun müddət Şimali Qafqazda din xadimi kimi fəaliyyət göstərmişdir.

1992-ci ildən Azərbaycanda dini fəaliyyətini davam etdirən Aleksandr İşein 1995-ci ildə ölkəmizdəki pravoslav prixodlarının rəhbəri vəzifəsinə təyin olunmuş, Rus Pravoslav Kilsəsinin Müqəddəs Sinodunun qərarı ilə 1998-ci ildə Bakı və Xəzəryanı Yeparxiyanın, 2011-ci ildə Bakı və Azərbaycan Yeparxiyasının yepiskopu seçilmiş, daha sonra arxiyepiskop dini rütbəsinə layiq görülmüşdür.

Azərbaycana qəlbən bağlı olan və onu ikinci Vətəni hesab edən arxiyepiskop Aleksandr ölkəmizin ictimai və dini-mənəvi həyatında yaxından iştirak etmiş, dinlərarası və xalqlararası dostluq, qardaşlıq və etimad mühitinin daha da möhkəmləndirilməsinə, cəmiyyətdə konfessiyalararası harmoniyanın və etnik-dini tolerantlığın inkişafına sanballı töhfələr vermişdir.

Aleksandr İşein mötəbər beynəlxalq tədbirlərə qatılaraq Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması işində diqqətəlayiq xidmətlər göstərmişdir.

Arxiyepiskop Aleksandrın din xadimi kimi səmərəli fəaliyyəti yüksək qiymətləndirilmişdir. O, 2002-ci ildə "Şöhrət" ordeni, 2012-ci ildə "Dostluq" ordeni və 2015-ci ildə "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə təltif edilmişdir.

Tanınmış din xadimi, xeyirxah və nəcib insan Aleksandr Gennadyeviç İşeinin işıqlı xatirəsi onu tanıyanların qəlbində daim yaşayacaqdır.

Qəbri nurla dolsun!

***İlham ƏLİYEV, Mehriban ƏLİYEVA, Əli ƏSƏDOV, Sahibə QAFAROVA, Samir NURİYEV, Eldar ƏZİZOV, Fərəh ƏLİYEVA, Mübariz QURBANLI, Allahşükür PAŞAZADƏ, Milix YEVDAYEV, Aleksandr ŞAROVSKİ, Robert MOBİLİ***

# Azərbaycanda koronavirus infeksiyasından daha 287 nəfər müalicə olunaraq sağalıb

**Azərbaycan Respublikasında koronavirus infeksiyasından daha 287 nəfər müalicə olunaraq sağalıb, 73 yeni yoluxma faktı qeydə alınıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a verilən məlumata görə, COVID-19-dan ölüm faktı qeydə alınmayıb.

Hazırkı dövrədək ölkəmizdə 335 min 65 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 328 min 194 nəfər müalicə olunaraq sağalıb, 4951 nəfər vəfat edib. Aktiv xəstə sayı 1920 nəfərdir.

Ötən müddət ərzində 3 milyon 606 min 364 test aparılıb. Dünənki test sayı isə 8515-dir.




## Milli Məclisin iclasında

# Milli Qurtuluş Günü böyük qələbəyə aparan yolun başlanğıcıdır

### Deputatlar Heydər Əliyevin dövlət və xalq qarşısındakı xidmətlərini ən yüksək ali dəyər kimi qiymətləndirdilər







**İyunun 11-də Milli Məclisin növbədənkənar sessiyasının daha bir iclası keçirildi. Parlamentin Sədri Sahibə Qafarova öncə qarşıdan gələn bayram - Qurtuluş Günü ilə bağlı fikirlərini səsləndirdi. Sədr bildirdi ki, bir neçə gündən sonra xalqımız Qurtuluş bayramını qeyd edəcək. Bu bayramın Azərbaycan tarixində xüsusi yeri var:**

"Ümummilli liderlər xalqların milli fəlakətlər ilə üzləşdiyi dövrlərdə tarix səhnəsinə çıxırlar. 1993-cü il iyun ayının 15-də xalqın təkidli tələbi ilə Heydər Əliyevin siyasi və dövlət rəhbərliyinə qayıtması parçalanmaq və məhv olmaq təhlükəsi ilə üz-üzə qalan Azərbaycanı uçurumun bir addımlığından geri qaytardı".

Spiker vurğuladı ki, Ulu Öndərin siyasi iradəsi, qətiyyəti, zamanın çağırışlarına yaradıcı münasibət bildirmək və düzgün qərarlar qəbul etmək qabiliyyəti sayəsində xalqımız müstəqil dövlətini qurmaq, qorumaq və yaşatmaq üçün tarixin verdiyi imkanı reallaşdıra bildi. Ümummilli Liderin o dövrdəki fəaliyyətinin əhəmiyyəti onun belə bir kəlamında çox dəqiq ifadə olunub: "Tarix dəfələrlə sübut etmişdir ki, xalqın əvəzsiz milli sərvəti olan müstəqilliyin qorunması onun əldə edilməsindən qat-qat ağır və mürəkkəb vəzifədir".

Sahibə Qafarova qeyd etdi ki, Heydər Əliyevin siyasi və dövlətçilik fəaliyyəti xalqa sədaqətlə xidmət etmək, onun yolunda hər cür fədakarlığa hazır olmaq nümunəsidir: "Ümummilli Liderin 30 ildən artıq dövrdə Azərbaycanın rəhbəri kimi fəaliyyətini nəzərə alaraq, əminliklə söyləmək olar ki, müasir Azərbaycan Respublikası Heydər Əliyev dühasının məhsuludur. Ulu Öndərin başladığı qurtuluş və quruculuq missiyası bu gün eyni əzm və iradə ilə davam etdirilir. Möhtərəm Prezidentimiz, müzəffər Ali Baş Komandan İlham Əliyevin həyata keçirdiyi uzaqgörən daxili və xarici siyasət Azərbaycanı zirvələrə yüksəltmişdir. Onun siyasi-diplomatik və sərkərdəlik məharəti sayəsində 44 günlük Vətən müharibəsində əzəli və tarixi torpağımız olan Qarabağın erməni işğalından azad edilməsi, tarixi ədalətin bərpa olunması və dövlətimizin ərazi bütövlüyünün təmin edilməsi Cənubi Qafqazda yeni reallıq yaradıb".

Spiker vurğuladı ki, bu gün Azərbaycan dünyanın geniş bir bölgəsində söz sahibi olan qüdrətli bir dövlətdir və əminliklə söyləmək olar ki, Azərbaycan dövləti daim var olacaq, Ulu Öndər Heydər Əliyevin dediyi kimi, əbədiyyətə qədər yaşayacaq.

İclasın gündəliyi təsdiq edildikdən sonra cari məsələlərlə bağlı müzakirələr aparıldı. Parlamentin komitə sədrləri Zahid Oruc, Tahir Rzayev, deputatlardan Elman Nəsirov, Ceyhun Məmmədov, Sahib Alıyev, Vahid Əhmədov, Sevil Mikayılova, Şahin Seyidzadə, Elşad Mirbəşiroğlu, Naqif Həmzəyev, Cavid Osmanov çıxış edərək gündəmdə olan mövzulara dair fikirlərini açıqladılar, seçiciləri narahat edən bəzi məsələlər və onların aradan qaldırılması istiqamətində görülən işlər barədə danışdılar.

Deputatlar çıxışlarında Milli Qurtuluş Günü münasibəti ilə ürək sözlərini də çatdırdılar. Qeyd edildi ki, bu, ölkəmizin tarixini, müqəddəratını həll edən ən vacib günlərdən biridir. 1993-cü ilin 15 iyun tarixində Azərbaycan parçalanmaqdan, ölkədə hökm sürən böhrandan xilas edilib. Bugünkü qüdrətli və güclü Azərbaycanın, ölkəmizi Vətən müharibəsində parlaq zəfərə aparan yolun təməli məhz bu tarixdə Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulub.

Sonra gündəlikdəki məsələlərin müzakirəsi başlanıldı.

Spiker Sahibə Qafarova bildirdi ki, iclasın gündəliyinə 9 məsələ daxil edilib. Birinci məsələ - "Hərbi qulluqçuların statusu haqqında", "Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında" və "Çernobıl qəzasının ləğvində iştirak etmiş və həmin qəza nəticəsində zərər çəkmiş vətəndaşların statusu və sosial müdafiəsi haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Qeyd edildi ki, nəzərdə tutulan dəyişiklik uyğunlaşdırma xarakteri daşıyır və bir oxunuşda qəbul ediləcək.

Məsələ barədə parlamentin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin üzvü Arzu Nağıyev məlumat verərək diqqətə çatdırdı ki, 29 dekabr 2020-ci il tarixli "Sosial müavinətlər haqqında" qanuna edilən dəyişikliyə və Azərbaycan Prezidentinin 2020-ci il 31 dekabr tarixli Fərmanına əsasən, bəzi kateqoriya şəxslərin, o cümlədən şəhid uşaqları, müharibə ilə və ya 1990-cı ilin 20 yanvar hadisələri ilə əlaqədar əlilliyi olan şəxslər, Çernobıl qəzası nəticəsində I və II dərəcə əlilliyi müəyyən edilmiş, yaxud vəfat etmiş valideynlərin uşaqları, habelə Çernobıl qəzası nəticələrinin aradan qaldırılması iştirakçılarının dispanser qeydiyyatında olan uşaqları sözləri çıxarılıb. Qanunda habelə "müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş bəzi kateqoriya şəxslərin 16 yaşadək (ümumtəhsil müəssisələrində əyani təhsil alanlar üçün 18 yaşadək) uşaqlarına müavinət" sözləri "müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının uşaqlarına müavinət" sözləri ilə əvəz edilib. Bu dəyişikliklərə əsasən, Azərbaycan Prezidentinin 30 dekabr 2020-ci il tarixli 1225, 1228 və 1230 nömrəli fərmanları ilə həmin kateqoriya şəxslərin təqaüdləri artırılıb.

Yuxarıda adıçəkilən qanunlara təklif olunan dəyişikliklər həmin qanunların "Sosial müavinətlər haqqında" qanunda dəyişiklik edilməsi barədə" qanuna uyğunlaşdırılması məqsədi daşıyır.

Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev məsələ ilə bağlı öz fikirlərini söyləyərək bunu Prezidentin bu qəbildən olan insanlara növbəti dəfə qayğısının ifadəsi kimi qiymətləndirdi. Sonra komitə sədri sosial-ictimai əhəmiyyət daşıyan missiya sayılan Məşğulluq Marafonundan söz açdı. Qeyd etdi ki, burada məqsəd cari ilin sonuna qədər bütün şəhid ailələri üzvlərinin, Qarabağ müharibəsində qazi və veteran olan şəxslərin, 44 günlük Vətən müharibəsi qəhrəmanlarının məşğulluğunun təmin olunmasıdır. Komitə sədri bütün təşkilat, idarə və müəssisələrə, ölkəmizdə fəaliyyət göstərən xarici şirkətlərə müraciət edərək bu prosesdə onları fəal iştirak etməyə çağırdı. Sonra sözügedən qanun layihəsi səsə qoyularaq qəbul edildi.

Milli Məclisin Sədri bildirdi ki, gündəliyin digər məsələləri ikinci oxunuşda olan qanun layihələridir. Növbəti 7 məsələ Milli Məclisə eyni zərfdə daxil olub və bu qanun layihələri mahiyyətcə bir-birinə yaxındır. Diqqətə çatdırılıb ki, bununla 60 qanunda dəyişiklik edilməsi nəzərdə tutulur və bu dəyişikliklərdə məqsəd əlilliyin meyarlarına dair Ümumdünya Səhiyyə Təşkilatı tərəfindən müəyyən edilmiş standartların və digər beynəlxalq normaların milli qanunvericiliyə implementasiya edilməsidir.

"Əlilliyi olan şəxslərin hüquqları haqqında" qanuna və digər əlaqədar qanunlara dəyişiklikləri ikinci oxunuşda diqqətə çatdıran Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev bildirdi ki, birinci oxunuşda müzakirələr zamanı deputatlar qanun layihələrini dəstəkləyiblər. Eyni zamanda bəzi təkliflər də səsləndirilib. Komitə sədri deputatların söylədiyi fikirlərə münasibət bildirdi.

Musa Quliyev qeyd etdi ki, son 3 il ərzində dövlət başçısının təşəbbüsləri ilə sosial sahəyə yönəldilən vəsait mütəmadi olaraq artırılıb. Bu müddətdə əmək haqları, pensiyalar, müavinət və təqaüdlərin aylıq məbləğləri bir neçə dəfə yüksəlib. Nəticədə pensiyalar üzrə xərclər 36 faiz artırılaraq 3,3 milyard manatdan 4,5 milyard manata, müavinətlər üzrə xərclər 120 faiz artırılaraq 279 milyon manatdan 613 milyon manata, təqaüd üzrə xərclər 3,5 dəfə artırılaraq 92 milyon manatdan 326 milyon manata çatdırılıb. Müavinət, təqaüd və ünvanlı dövlət sosial yardımı üzrə büdcədən illik xərclər 97 faiz artırılaraq 588 milyon manatdan 1,2 milyard manata çatdırılıb.

Komitə sədri Qarabağ müharibəsi qazilərinin əlillik vəziyyətinin müəyyənləşdirilməsi məsələsinə toxunaraq diqqətə çatdırdı ki, artıq 800 nəfərdən çox qazimizin əlillik dərəcəsi müəyyənləşdirilib və onların sosial müdafiəsi tədbirləri həyata keçirilməkdədir: "Əlillik vəziyyəti dinamik, daim müşahidə, müalicə və reabilitasiya tələb edən bir prosesdir. Ona görə də bu il əlilliyi müəyyən edilən şəxsin növbəti ekspertizada əlillik vəziyyətinin və statusunun dəyişilməsi tamamilə normal və məntiqə uyğundur. Əsas odur ki, bu qərarlar ədalətli, qanun çərçivəsində və şəffaf olsun. Təqdim olunan qanun layihəsi də məhz bu məqsədə xidmət edir".

Komitə sədrləri Bəxtiyar Əliyev, Siyavuş Novruzov, Tahir Mirkişili, Zahid Oruc, deputatlardan Əli Məsimli, Vüqar Bayramov, Bəhruz Məhərrəmov, Qüdrət Həsənquliyev, Aydın Mirzəzadə, Aydın Hüseynov, Aqil Abbas, Vahid Əhmədov təklif olunan dəyişikliklər barədə öz fikirlərini söylədilər, qeyd və təkliflərini səsləndiriblər. Komitə sədri Musa Quliyev deputatların toxunduğu bəzi məqamlara aydınlıq gətirdi.

Müzakirələrin sonunda gündəliyin 7 məsələsi - "Əlilliyi olan şəxslərin hüquqları haqqında" qanunda dəyişiklik edilməsi barədə; "Əmək pensiyaları haqqında" qanunda dəyişiklik edilməsi barədə; Azərbaycan Respublikasının Əmək Məcəlləsində, Mülki Məcəlləsində, Mülki Prosessual Məcəlləsində, Ailə Məcəlləsində, Cinayət Məcəlləsində, Vergi Məcəlləsində, Cəzaların İcrası Məcəlləsində, Mənzil Məcəlləsində, Miqrasiya Məcəlləsində, İnzibati Xətalar Məcəlləsində və Torpaq Məcəlləsində dəyişiklik edilməsi haqqında; "Çernobıl qəzasının ləğvində iştirak etmiş və həmin qəza nəticəsində zərərçəkmiş vətəndaşların statusu və sosial müdafiəsi haqqında", "Yoluxucu xəstəliklərin immunoprofilaktikası haqqında", "Narkoloji xidmət və nəzarət haqqında", "Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) haqqında", "Şəkərli diabet xəstəliyinə tutulmuş şəxslərə dövlət qayğısı haqqında", "Qanun, qan komponentlərinin donorluğu və qan xidməti haqqında", "Hemofiliya və talassemiya irsi qan xəstəliklərinə düçar olmuş şəxslərə dövlət qayğısı haqqında", "Ünvanlı dövlət sosial yardımı haqqında", "Sosial müavinətlər haqqında", "Onkoloji yardım haqqında", "Sosial xidmət haqqında", "Mədəniyyət haqqında", "Uşaqların icbari dispanserizasiyası haqqında", "Məktəbəqədər təhsil haqqında", "Məşğulluq haqqında" və "Peşə təhsili haqqında" qanunlarda dəyişiklik edilməsi barədə; "Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında", "Sosial sığorta haqqında", "Polis haqqında", "Dövlət qulluqçularının ayrı-ayrı kateqoriyaları üçün qısaldılmış iş vaxtı haqqında", "Azərbaycan Respublikasının xarici ölkələrdə və beynəlxalq təşkilatlarda fəaliyyət göstərən diplomatik nümayəndəliklərində qulluq edən şəxslərin icbari sığortası haqqında", "Sığorta fəaliyyəti haqqında", "Qeyri-dövlət (özəl) mühafizə fəaliyyəti haqqında", "Penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslərin sosial adaptasiyası haqqında" və "Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında" qanunlarda dəyişiklik edilməsi barədə; "Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında", "Azərbaycan Respublikası Milli Məclisi deputatının statusu haqqında", "Hərbi qulluqçuların dövlət icbari şəxsi sığortası haqqında", "Məhkəmələr və hakimlər haqqında", "Əhalinin sağlamlığının qorunması haqqında", "Hərbi xidmətkeçmə haqqında" Əsasnamənin təsdiq edilməsi barədə", "Uşaq hüquqları haqqında", "Yol hərəkəti haqqında", "Cinayət prosesində iştirak edən şəxslərin dövlət müdafiəsi haqqında", "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında", "Məhkəmə və hüquq mühafizə orqanları işçilərinin dövlət icbari şəxsi sığortası haqqında", "Avtomobil yolları haqqında", "Azərbaycan Respublikasında vərəmlə mübarizə haqqında", "Psixiatriya yardımı haqqında", "İcbari sığortalar haqqında" və "Dağınıq skleroz xəstəliyinə tutulmuş şəxslərə dövlət qayğısı haqqında" qanunlarda dəyişiklik edilməsi barədə; "Dövlət qulluğu haqqında", "Dövlət rüsumu haqqında", "İcra haqqında", "Gənclər siyasəti haqqında", "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında" və "Bədən tərbiyəsi və idman haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihələri ayrı-ayrılıqda səsə qoyularaq ikinci oxunuşda qəbul edildi.

İclasda "Dövlət rüsumu haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsini ikinci oxunuşda parlamentin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Vüqar Bayramov təqdim etdi. Qanun layihəsi müharibə ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslərin sosial vəziyyətlərinin daha da yaxşılaşdırılması məqsədilə hazırlanıb və onların məhkəməyə verilən iddia ərizələri üzrə və mənzilin (evin) alqı-satqısı zamanı dövlət rüsumu ödəməkdən azad edilməsini nəzərdə tutur. Komitə sədri Siyavuş Novruzov layihə ilə bağlı fikirlərini və təkliflərini səsləndirdikdən sonra qanun layihəsi ikinci oxunuşda qəbul olundu.

İclasın sonunda Azərbaycan xalqının taleyində böyük əhəmiyyət daşıyan 15 iyun - Milli Qurtuluş Günü ilə əlaqədar müzakirələr də aparıldı. Komitə sədrləri Zahid Oruc, Siyavuş Novruzov, deputat İsa Həbibbəyli çıxışlarında ölkəmizin müstəqillik tarixində baş verən mühüm məqamları qiymətləndirib, Ümummilli Lider Heydər Əliyevin dövlət və xalq qarşısında göstərdiyi xidmətlərdən bəhs etdilər. Bildirildi ki, Azərbaycan xalqı 10 noyabr 2020-ci il Qələbəsinə aparan yola 15 iyun 1993-cü ildə çıxıb. 2020-ci il Heydər Əliyevin arzularının həyata keçdiyi ildir.

Çıxışlarda vurğulandı ki, Prezident İlham Əliyevin həyata keçirdiyi siyasət müstəqilliyimizin daha da möhkəmlənməsinə, Azərbaycanda daxili siyasi sabitliyin və inkişafın təmin olunmasına, ölkəmizin dünyada mövqeyinin möhkəmlənməsinə tam təminat verir. İşğaldan azad olunmuş ərazilərə Böyük Qayıdış strategiyasının milli qurtuluşdan başlandığı və bu mənada Heydər Əliyev siyasətinin davam etdirildiyi qeyd edildi.

Sonra Milli Məclisin Sədri Sahibə Qafarova deputatları və media nümayəndələrini 15 iyun - Milli Qurtuluş Günü münasibəti ilə təbrik etdi.

***Rəşad BAXŞƏLİYEV, "Azərbaycan"***

# Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Hörmətli İlham Heydər oğlu!

İcazə verin, milli bayramınız - Respublika Günü münasibətilə Sizi və bütün Azərbaycan xalqını Rusiya Müsəlmanları Ruhani Məclisi adından və şəxsən öz adımdan təbrik edim.

Bu gün Azərbaycan xalqının tarixində çox mühüm mərhələdir. Düz 103 il bundan əvvəl, 1918-ci il mayın 28-də Azərbaycanda Qafqazda ilk demokratik respublika elan edilib. Azərbaycan Xalq Cümhuriyyəti onun ərazisində yaşayan bütün millətlərin müstəqil inkişafı üçün geniş imkanlar yaradıb, bütün sahələrdə tərəqqiyə, o cümlədən iqtisadi, siyasi və demokratik islahatlara nail olub.

Müasir Azərbaycan həmin demokratik respublikanın hüquqi varisidir. Bu gün Sizin ölkə Prezidenti kimi yorulmaz və gərgin əməyiniz sayəsində Azərbaycan Respublikası sürətlə inkişaf edir və beynəlxalq arenada öz mövqelərini möhkəmlədir. Sizin ölkəniz mütəmadi olaraq çoxsaylı tədbirlər keçirməklə bütün dünyanın siyasi, mədəni və dini liderlərini bir araya toplayan mədəniyyətlərarası dialoqun və əməkdaşlığın qlobal mərkəzi kimi son dərəcə mühüm rol oynayır.

Sevindirici haldır ki, hazırda strateji tərəfdaşlıq və əməkdaşlıq ruhunda uğurla inkişaf edən Rusiya-Azərbaycan münasibətləri qardaş ölkələrimizin inkişafı və qarşılıqlı köməyi üçün möhkəm təməl kimi xidmət edir. Rusiya Federasiyası Azərbaycan Respublikası ilə qarşılıqlı hörmət və etimad prinsiplərinə əsaslanan ənənəvi dostluq münasibətlərini səmimi qiymətləndirir. Mən, bir din xadimi kimi, əminəm ki, ölkələrimiz arasında konfessiyalararası dialoq gələcəkdə daha da möhkəmlənəcək. Rusiya Müsəlmanları Ruhani Məclisi və Qafqaz Müsəlmanları İdarəsi uzun illərboyu dinlərarası və mədəniyyətlərarası dialoqun möhkəmlənməsi, sülh, təhlükəsizlik və sabitlik ideyalarının geniş yayılması sahəsində sıx əməkdaşlıq edir. Biz ölkələrimizin müsəlmanları arasında bərqərar olmuş qardaşlıq və dostluq münasibətlərini yüksək qiymətləndiririk.

Bu əlamətdar gün bütün Azərbaycan xalqının birlik rəmzidir. Əminəm ki, Sizin qeyri-adi liderlik keyfiyyətləriniz, idarəçilik istedadınız, müdrikliyiniz, məqsədyönlülüyünüz və insanlara diqqətli münasibətiniz dövlətinizin durmadan inkişafını davam etdirməyə imkan verəcək, Azərbaycan xalqının ümid və amallarını tamamilə doğruldacaq, İslam prinsiplərinə, ənənələrinə sədaqət və hamını birləşdirən ümumbəşəri dəyərlər qarşıya qoyulmuş məsələlərin həllinə kömək edəcək.

Hörmətli İlham Heydər oğlu, Sizə və Azərbaycan Respublikasının bütün xalqına mənəvi və fiziki qüvvə, cansağlığı arzu edirəm, Ulu Tanrı bütün xoş niyyətlərinizdə Sizə yardımçı olsun.

Uca Allah Sizin bütün xeyirxah əməllərinizi, səmimi dualarınızı və ibadətinizi qəbul etsin, hər iki dünyada bu əməllərinizin əvəzini versin.

*Hörmətlə və xoş dualarla,*

***Albir KRQANOV,***
***Moskvanın müftisi,***
***Rusiya Müsəlmanları Ruhani Məclisinin rəhbəri,***
***Rusiya Federasiyası İctimai Palatasının üzvü***

# Bakı Ali Neft Məktəbi YAP-la birgə 15 İyun - Milli Qurtuluş Gününə həsr olunan tədbir keçirib



Bakı Ali Neft Məktəbində (BANM) Yeni Azərbaycan Partiyasının (YAP) sədr müavini, Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovun iştirakı ilə Azərbaycan xalqının taleyində böyük əhəmiyyət daşıyan 15 İyun - Milli Qurtuluş Gününə həsr olunan "Milli qurtuluşdan tarixi Zəfərə" adlı tədbir keçirilib. Karantin qaydalarına uyğun şəkildə təşkil edilən canlı görüş paralel olaraq onlayn formatda da yayımlanıb. Görüşə onlayn olaraq 900-dək iştirakçı qatılıb.

AZƏRTAC xəbər verir ki, YAP-ın sədr müavini, Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov ilk olaraq ali məktəbdə yaradılan tədris şəraiti, maddi-texniki baza, sosial infrastruktur və tədqiqat mühiti ilə yaxından tanış olub. Bakı Ali Neft Məktəbinin rektoru Elmar Qasımov tədris üçün yaradılan şərait, infrastruktur, gələcək planlar barədə qonağa ətraflı məlumat verib.

Ulu Öndərin büstü önünə gül düzülüb, ali məktəbin tədris otaqlarına, tədqiqat laboratoriyalarına, İnnovasiya Mərkəzinə, neft tarixinə dair nadir eksponatların yer aldığı muzeyə baxış keçirilib.

Tədbirdə çıxış edən Tahir Budaqov diqqətə çatdırıb ki, tariximizdə Milli Qurtuluş Günü böyük ictimai, siyasi və tarixi əhəmiyyətə malikdir. Ümummilli Liderimiz Heydər Əliyevin 1993-cü il iyunun 15-də hakimiyyətə qayıtması xalqımızın çoxəsrlik tarixinə taleyüklü siyasi hadisə kimi daxil olub. "Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev öz xilaskarlıq missiyası ilə ölkəmizin müstəqilliyini qorudu, respublikada tüğyan edən ictimai-siyasi böhranı aradan qaldırdı və inkişafın təməlini qoydu. Bu gün milli qurtuluş ideologiyasının təntənəsi müstəqil respublikamızın davamlı inkişafında özünü büruzə verir, regionda və dünyada Azərbaycanın nüfuzu daha da artır. Bu gün Azərbaycanda müstəqil dövlətçilik ənənələri formalaşdırılmışdır və şübhəsiz ki, bu mühüm nailiyyətin əldə edilməsində Ulu Öndər Heydər Əliyevin fədakar xidmətlərinin müstəsna əhəmiyyəti vardır", - deyə Tahir Budaqov qeyd edib.

O vurğulayıb ki, "Dəmir yumruq" əməliyyatı ilə qazanılan tarixi Zəfərin əsasında Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin liderlik keyfiyyətləri, Azərbaycanın siyasi, iqtisadi, mədəni, hərbi sahələrdə, eyni zamanda xarici siyasətdə uğurları və xalq-iqtidar birliyi dayanır.

Bakı Ali Neft Məktəbinin rektoru Elmar Qasımov da, öz növbəsində, Ümummilli Lider Heydər Əliyevin 1993-cü il iyunun 15-də Azərbaycanda hakimiyyətə qayıdışını dövlətçilik tariximizin şanlı səhifəsi adlandırıb.

"Qazanılan bütün nailiyyətlərin əsasında Ümummilli Lider tərəfindən müəyyənləşdirilən siyasi kurs və Prezident İlham Əliyevin bu siyasi kursu uğurla davam etdirməsi faktı dayanır. Prezident İlham Əliyevin bu siyasəti uğurla həyata keçirməsi nəticəsində Azərbaycan dünyanın dinamik inkişaf edən, modernləşən, beynəlxalq miqyasda nüfuzu gündən-günə artan dövlətə çevrilib, ötən dövr ərzində möhtəşəm iqtisadi uğurlara imza atılıb", - deyə rektor əlavə edib.

Tahir Budaqova Bakı Ali Neft Məktəbinin "Fəxri qonaq" plaketi təqdim olunub.

Sonda Tahir Budaqov Bakı Ali Neft Məktəbinin tələbələrinin çoxsaylı suallarını cavablandırıb.

# *Nazir Vilayət EYVAZOV:*
# "Əminəm ki, gənc zabitlərimiz xalqa və dövlətə sədaqətlə xidmət edəcəklər"




**İyunun 11-də Daxili İşlər Nazirliyi (DİN) Daxili Qoşunlarının Ali Hərbi Məktəbində 2020-2021-ci tədris ilinin buraxılışına həsr olunmuş təntənəli mərasim keçirilib.**





DİN-in Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, mərasimdə daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov iştirak edib.

Əvvəlcə Ali Hərbi Məktəbin döyüş bayrağı sıra meydanına gətirilib, Ümummilli Lider Heydər Əliyevin və Vətənimizin suverenliyi, ərazi bütövlüyü uğrunda şəhid olmuş, xidməti-döyüş tapşırıqlarının yerinə yetirilməsi zamanı canlarından keçmiş hərbi qulluqçuların əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Nazir müavini - Daxili Qoşunların komandanı general-leytenant Şahin Məmmədov məzunların buraxılış mərasiminin Ali Hərbi Məktəbin həyatında ən əlamətdar hadisələrdən biri olduğunu diqqətə çatdıraraq, təhsil müəssisəsinin inkişaf yolu, maddi-texniki və tədris bazasının gücləndirilməsi istiqamətində görülən işlər və qarşıda duran vəzifələr barədə məruzə edib.

Gənc zabitlər qarşısında çıxış edən daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov məmnunluqla bildirib ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ölkəyə rəhbərlik etməyə başladığı ilk dövrdən qoşunların döyüş hazırlığının yüksəldilməsini daim diqqət mərkəzində saxlayıb, müasir silah və texnika ilə təminatı, şəxsi heyətin sosial müdafiəsinin gücləndirilməsi sahəsində bir çox vacib qərarlar qəbul edib. Məhz bu ali münasibətin nəticəsidir ki, Daxili Qoşunlar qarşıya qoyulan istənilən xidməti-döyüş tapşırığını yüksək səviyyədə yerinə yetirməyə qadir silahlı birləşməyə çevrilib.

Daxili Qoşunlar üçün yüksəkixtisaslı kadrların hazırlanmasında danılmaz roluna, təmənnasız yardımlarına görə qardaş Türkiyə Respublikasının Jandarma Qüvvələri Baş Komandanlığına, hərbi mütəxəssislərinə təşəkkürünü bildirən nazir bu işdə digər ölkələrin də analoji təhsil müəssisələri ilə işgüzar əlaqələrinin əhəmiyyətini qeyd edib.

General-polkovnik Vilayət Eyvazov Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə möhtəşəm Qələbə ilə nəticələnən 44 günlük Vətən müharibəsində Daxili Qoşunların hərbi qulluqçularının da ön cəbhədə iştirak edərək mərdlik, qəhrəmanlıq, vətənpərvərlik nümunələri göstərdiyini bildirib. Nazir onların arasında Ali Hərbi Məktəbin 33 məzununun olmasının bu təhsil müəssisəsində kursantların vətənpərvərlik, dövlətə, xalqa, hərbi anda sədaqət ruhunda tərbiyəsi, yüksək intizam, mətinlik, peşəkarlıq keyfiyyətlərinə malik olması üçün ortaya qoyulmuş böyük və əzmkar fəaliyyətin əyani təsdiqi olduğunu vurğulayıb.

O, Daxili Qoşunların şəxsi heyətinin işğaldan azad edilmiş ərazilərdə, habelə xüsusi karantin rejimi dövründə polis əməkdaşları ilə birgə fəaliyyətinin də əhəmiyyətli və təqdirəlayiq olduğunu qeyd edib. Məzunların həyatında yeni dövrün başladığını nəzərə çatdıran daxili işlər naziri Ali Hərbi Məktəbi müvəffəqiyyətlə bitirmələri münasibətilə gənc zabitləri, eləcə də onların valideynlərini və yaxınlarını təbrik edib, Daxili Qoşunlar üçün peşəkar kadrlar hazırlayan bu ali təhsil müəssisəsinin rəhbərliyinə və zabit-müəllim heyətinə təşəkkürünü bildirib, olduqca vacib fəaliyyətlərində onlara uğurlar arzulayıb.

Nazir Vilayət Eyvazov əminliklə bildirib ki, daxili işlər orqanlarının və Daxili Qoşunların şəxsi heyəti xalqa və dövlətə bundan sonra da sədaqətlə xidmət edəcək, ölkədə asayişin və təhlükəsizliyin etibarlı qorunması, qarşıya qoyulmuş tapşırıqların tam və layiqincə yerinə yetirilməsi üçün var qüvvəsi ilə çalışacaq.

Nazir Ali Hərbi Məktəbi əla qiymətlərlə bitirmiş üç məzuna fərqlənmə diplomlarını və "baş leytenant" hərbi rütbələrinin poqonlarını təqdim edib.

Sonda gənc zabitlər təntənəli marşla tribunanın qarşısından keçib.

# Azərbaycanın xarici işlər naziri Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının ölkəmizdəki səfiri ilə görüşüb



İyunun 10-da Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının ölkəmizdəki səfiri Ceyms Şarp ilə görüşüb.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, nazir qarşı tərəfə bölgədə mövcud olan cari vəziyyət, xüsusilə sərhəd məntəqəsində baş verən son gərginliklər, üçtərəfli bəyanatların icrası ilə əlaqədar Azərbaycan tərəfindən atılan addımlar, azad edilmiş ərazilərdə mina təhlükəsi və doğurduğu fəsadlar barədə məlumat verib. Nazir Böyük Britaniyanın Azərbaycanın azad edilmiş ərazilərinin minadan təmizlənməsi sahəsində fəaliyyətinə verdiyi dəstəyə görə təşəkkür ifadə edib.

Tərəflər pandemiya ilə bağlı məsələlər, o cümlədən ölkədə sərt karantin rejiminin yumşaldılması istiqamətində görülən tədbirlər, xarici ölkə vətəndaşlarının səfərləri və s. ətrafında fikir mübadiləsi aparıblar.

Görüşdə həmçinin qarşılıqlı maraq doğuran regional və beynəlxalq təhlükəsizlik məsələləri müzakirə olunub.

# "Sizi tanıyaq" layihəsi çərçivəsində növbəti görüş keçirilib

İyunun 11-də Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova Komitənin nəzdində fəaliyyət göstərən Şüvəlan Uşaq və Ailələrə Dəstək Mərkəzində istedadlı uşaqlar və gənclərlə görüşüb.



AZƏRTAC xəbər verir ki, 15 İyun - Milli Qurtuluş Gününə həsr olunmuş görüş "Sizi tanıyaq" layihəsi çərçivəsində baş tutub.

Tədbirdə iştirak edən uşaqlar və gənclər əvvəlcə Şüvəlan Uşaq və Ailələrə Dəstək Mərkəzində Vətən müharibəsi şəhidlərinin xatirəsinə yaradılmış guşəni ziyarət ediblər.

Tədbir iştirakçılarına mərkəzin fəaliyyəti və burada yaradılan şərait barədə də məlumat verilib.

Görüşdə çıxış edən komitə sədri Bahar Muradova belə görüşlərin istedadlı və bacarıqlı gəncləri daha yaxından tanımağa, onların fikir və düşüncələrini öz dillərindən eşitməyə imkan yaratdığını bildirib. Qeyd edib ki, bu gün ölkəmizdə uşaqların hərtərəfli inkişafı, onların qayğılarının həlli və maraqlarının qorunması, milli-mənəvi dəyərlər ruhunda yetişdirilməsi istiqamətində lazımi tədbirlər həyata keçirilir.

"Azərbaycanda ailə, uşaq və qadın məsələləri daim dövlətin diqqəti mərkəzindədir. Ölkəmizdə bu sahədə siyasətin banisi Ulu Öndər Heydər Əliyevdir. Müstəqillik illərində bu sahədə xeyli iş görülüb. Müstəqilliyimizin ilk illərindən etibarən Ümummilli Lider Heydər Əliyev, ilk növbədə, uşaqların sağlam, təhlükəsiz, rahat şəraitdə böyüməsi üçün bütün zəruri addımları atıb. Azərbaycan hər zaman istedadlı övladları ilə fərqlənib. Ölkəmiz müstəqilliyini bərpa etdikdən sonra həyata keçirilən siyasət müasir Azərbaycan gəncliyinin inkişafı, onların yaradıcılıq qabiliyyətinin formalaşdırılması və peşəkar yetişməsi üçün baza rolunu oynayıb. Bu siyasətin, dövlət proqramlarının nəticəsidir ki, hazırda Azərbaycanda bütün istiqamətlərdə istedadlı gənclər fəaliyyət göstərirlər", - deyə komitə sədri qeyd edib.

Layihə rəhbəri Vüsalə Qələndərli "Sizi tanıyaq" layihəsi barədə ətraflı məlumat verib. Bildirib ki, layihənin məqsədi istedadlı uşaqları, gəncləri cəmiyyətə tanıtmaq, onlara vətənpərvərlik və dövlətçilik ruhu aşılamaq, müstəqil özünüifadəetmə bacarıqlarını formalaşdırmaqdır.

Tədbir uşaqların vətənpərvərlik mövzusunda hazırladıqları proqramla və əl işlərindən ibarət sərginin nümayişi ilə davam edib.

Sonda tədbirdə iştirak edən gənclər və uşaqlar mükafatlandırılıb.

Uşaq və gənclərə mükafatları Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova təqdim edib.

# Azərbaycan İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin Ermənistanın tələbini rədd edən qərarını alqışlayır

İnsan Hüquqları üzrə Avropa Məhkəməsi Ermənistanın hazırda Azərbaycanda saxlanılan 11 Ermənistan vətəndaşının dərhal sərbəst buraxılması tələbini rədd edib.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin rəisi Leyla Abdullayeva KİV-in bununla bağlı sualına cavabında deyib:

"Azərbaycan hökuməti İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin (İHAM) Ermənistanın hazırda Azərbaycanda saxlanılan 11 vətəndaşının dərhal sərbəst buraxılması tələbini rədd edən qərarını alqışlayır. Ermənistan tərəfindən Məhkəmə Reqlamentinin 39-cu Qaydasına istinad edilərək saxlanılan şəxslərin sərbəst buraxılması üçün iki dəfə cəhd göstərilib, hər ikisi rədd edilib.

Ermənistanın müraciəti Azərbaycanın beynəlxalq qanunlarla təsbit olunmuş, ölkənin daxili qanunvericiliyini və beynəlxalq hüququ pozan, habelə ağır hərbi cinayətlər törətməkdə şübhəli bilinən şəxslərin cinayət təqibinə dair hüquq və öhdəliklərini göz ardına alır. İHAM-ın qərarı məhz bu hüququ vurğulayır.

Saxlanılan şəxslərin dərhal sərbəst buraxılması ilə bağlı Ermənistanın müraciəti Azərbaycan hökumətinə qanunun aliliyinə hörmətsizlik çağırışına bərabərdir. Biz sözügedən prinsiplərə sadiq qalırıq və İHAM-ın da qəbul etdiyi kimi cinayət təqibi başa çatana qədər bu şəxslər həbsdə saxlanılacaq.

Bildiyiniz kimi, Ermənistanın dərhal sərbəst buraxılmasını tələb etdiyi şəxslərdən ikisi - Lüdviq Mkrtçyan və Alyoşa Xosrovyan - Azərbaycan vətəndaşlarına işgəncə verməkdə təqsirləndirilərək hazırda məhkəmə istintaqına cəlb olunublar. Azərbaycan öz hüquq və öhdəliklərinə uyğun olaraq, beynəlxalq və daxili hüququn müəyyən olunmuş prinsiplərinə riayət etməyə və bu təqibi başa çatdırmağa sadiqdir.

Onu da qeyd etmək istərdik ki, Azərbaycan bu şəxslərin vəziyyəti ilə bağlı olan bütün tələbləri yerinə yetirib. Beynəlxalq Qırmızı Xaç Komitəsi, habelə insan haqları üzrə müvəkkilin həbs olunmuş şəxslərlə görüşləri təşkil edilib və mayın 27-də Azərbaycan hərbçiləri tərəfindən saxlanılan 6 hərbçi də daxil olmaqla, sözügedən həbsdə olan şəxslərin səhhəti barədə tibbi sənədlər təqdim edilib".

# Qarabağ müharibəsində Ermənistan ordusunun tərkibində döyüşmüş livanlı muzdlu terrorçunun növbəti məhkəməsi keçirilib

Qarabağ müharibəsində Ermənistan ordusunun tərkibində döyüşmüş livanlı muzdlu terrorçu Eulcekcian Viken Abrahamın cinayət işi üzrə iyunun 11-də Yasamal Rayon Məhkəməsində növbəti məhkəmə iclası keçirilib.

AZƏRTAC xəbər verir ki, hakim Elbəy Allahverdiyevin sədrliyi ilə keçirilən prosesdə yerli və xarici kütləvi informasiya vasitələrinin, qeyri-hökumət təşkilatlarının təmsilçiləri, beynəlxalq statuslu nümayəndələr iştirak ediblər.

Prosesdə təqsirləndirilən şəxsin vəkili müdafiə çıxışı edib. O, müvəkkili barəsində bəraət hökmünün verilməsini istəyib.

Daha sonra təqsirləndirilən şəxs çıxış edib. Livanlı muzdlu döyüşçü barəsində bəraət hökmünün verilməsini xahiş edib.

Məhkəmə kollegiyası qərar qəbul etmək üçün müşavirəyə yollanıb.

Bu cinayət işi üzrə növbəti məhkəmə iclası iyunun 14-nə təyin olunub.

Xatırladaq ki, Azərbaycan Respublikası Baş Prokurorluğunun və Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) Mətbuat xidmətlərinin mayın 5-də yaydıqları birgə məlumata əsasən, Livan Respublikasının vətəndaşı Eulcekcian Viken Abraham və qeyrilərinin maddi mükafat müqabilində muzdlu kimi mütəşəkkil dəstə halında birləşib Ermənistan silahlı qüvvələri tərkibində Azərbaycan Respublikası vətəndaşlarına qarşı terrorçuluq fəaliyyətində iştirak etmələri faktları əsasında Azərbaycan Respublikası DTX-nin İstintaq Baş İdarəsində Cinayət Məcəlləsinin müvafiq maddələri ilə başlanmış cinayət işi üzrə istintaq yekunlaşdırılıb.

İstintaqla müəyyən olunub ki, Livan Respublikasının vətəndaşı, Beyrut şəhər sakini, 1979-cu il təvəllüdlü Eulcekcian Viken Abraham 2020-ci il sentyabrın 29-da Livan Respublikasının vətəndaşı Hovak Kikiyanın ilkin olaraq, 2500 ABŞ dolları məbləğində maddi mükafat müqabilində muzdlu kimi Azərbaycan Respublikasının işğal altında olmuş ərazilərində hərbi əməliyyatlarda iştirak etmək təklifini qəbul edib. O, bu məqsədlə həmin gün digər şəxslərlə mütəşəkkil dəstə halında qəsdən Ermənistan ərazisindən Azərbaycan Respublikasının mühafizə olunan dövlət sərhədini nəzarət-buraxılış məntəqələrindən kənar keçib digər muzdluların da olduğu ərazilərə gəlib.

Həmçinin Viken Eulcekcian və maddi mükafat müqabilində muzdlu kimi döyüşən digər şəxslər Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmayan silahlı birləşmələrin tərkibində qanunsuz olaraq əldə etdikləri odlu silahlardan, döyüş sursatlarından və komplekt hissələrindən istifadə etməklə Azərbaycan Respublikası vətəndaşlarına və Ordusuna qarşı terrorçuluq fəaliyyətində iştirak ediblər.

Törətdiyi cinayət əməllərinə görə Viken Eulcekciana Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 114.3-cü (muzdlunun hərbi münaqişədə və ya hərbi əməliyyatlarda iştirakı), 214.2.1-ci (terrorçuluq qabaqcadan əlbir olan bir qrup şəxs, mütəşəkkil dəstə və ya cinayətkar birlik (cinayətkar təşkilat) tərəfindən törədildikdə), 318.2-ci (Azərbaycan Respublikasının dövlət sərhədini qanunsuz olaraq keçmə) və digər maddələrində nəzərdə tutulan ittiham elan edilərək, barəsində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib.

Xatırladaq ki, mayın 5-də cinayət işi üzrə ittiham aktı təsdiq edilərək baxılması üçün məhkəməyə göndərilmişdi.

# İlham Əliyev Qarabağın qədim məktəblərini bərpa edir



Əvvəli 1-ci səh.

Şuşa qəza məktəbi dövlət idarələri üçün qulluqçular, ilk növbədə isə Azərbaycan və rus dillərinə tərcüməçilər hazırlamaq məqsədilə açılmışdı. Məktəb Şuşada olan Bazel alman missionerlərinin Yevageli cəmiyyəti tərəfindən pulsuz olaraq bir il müddətinə verilmiş binada yerləşirdi. İki sinif otağından əlavə, burada iki müəllimin yaşaması üçün də şərait yaradılmışdı. Yeni bina tikmək üçün yerli əhali gümüş pulla 5235 manat 16 qəpik pul toplamışdı.

## Qocaman məktəbin yeni təməli qoyuldu

Şuşa qəza məktəbinin birinci sinfinə ilk il 19 şagird qəbul olunmuşdu. Lakin ildən-ilə şagirdlərin sayı artaraq 1833-cü ildə 27, 1834-cü ildə 44 nəfərə çatmış və ikinci sinif də açılmışdı. Rusiyadan Zaqafqaziya Məktəblər Direktorluğunun sərəncamına göndərilmiş titulyar müşavir Nikolay Mixaylovski məktəbin ilk müəllimi və ştat üzrə nəzarətçisi təyin edilmişdi. Tədris planına şəriət, qiraət, hüsnxətt, hesab, rus dili və Azərbaycan dili daxil idi. 1845-ci ilin məlumatına görə, məktəbin kitabxanasında 301 adda ədəbiyyat və digər tədris vəsaiti var idi.

Məzunları Azərbaycan maarifinin, məktəb və mədəniyyətinin inkişafında mühüm və böyük rol oynamış Şuşa qəza məktəbi 1874-cü ilə qədər öz fəaliyyətini davam etdirmiş, daha sonra estafetini Şuşa şəhər məktəbinə vermişdir.

Şuşa şəhər məktəbini daha yaxşı qiymətlərlə bitirənlər imtahan verərək ibtidai məktəb müəllimi səlahiyyətini ala bilirdilər. Bu təhsil ocağı 1927-1928-ci dərs ilindən yeddiillik məktəbə, 1933-34-cü dərs ilindən isə 1 nömrəli şəhər orta məktəbinə çevrildi.

191 yaşlı əzəmətli tarixə malik bu məktəb Azərbaycanda bütün sahələr üzrə öz sözünü demiş xeyli məşhur insan yetişdirib: Nəcəf bəy Vəzirov, Firudin bəy Köçərli, Üzeyir bəy Hacıbəyli, Mir Möhsün Nəvvab, Süleyman Ələsgərov, Səfərəli bəy Vəlibəyov, Cabbar Qaryağdıoğlu, Əhməd Ağoğlu, Əbdürrəhim bəy Haqverdiyev, Yusif Vəzir Çəmənzəminli, Süleyman Sani Axundov və daha kimlər, kimlər...

1982-ci ildə Ümummilli Lider Heydər Əliyevin uzaqgörənliklə imzaladığı sərəncam əsasında zəngin tarixi, pedaqoji ənənələri ilə fərqlənən, respublikanın elm, təhsil, mədəniyyət, iqtisadiyyat və digər sahələrinə layiqli töhfələr verən bu məktəbin 150 illik yubileyi təntənəli şəkildə qeyd olunub.

1 nömrəli orta məktəb yarandığı vaxtdan 1992-ci ilin may ayınadək Şuşada fəaliyyətini davam etdirib. Şəhərin erməni qəsbkarları tərəfindən işğal edilməsindən sonra məktəb Bakının Yasamal rayonundakı 38 nömrəli orta məktəbin binasında, onun maddi-texniki bazasından istifadə etməklə ikinci növbədə 2015-2016-cı tədris ilinə qədər fəaliyyət göstərib.

Prezident İlham Əliyevin 2011-ci ildə imzaladığı sərəncama uyğun olaraq Şuşa şəhər 1 nömrəli tam orta məktəbi 2015-2016-cı tədris ilindən etibarən yeni inşa edilən binada bütün təhsil infrastrukturu ilə şagirdlərin və müəllimlərin istifadəsinə verilib.

2021-ci ilin 12 mayında isə Prezident İlham Əliyev 28 ildir qəriblikdə fəaliyyət göstərən Şuşa 1 saylı tam orta məktəbin intizarına son qoydu. Şuşada qədim məktəbin yeni təməlini atdı...

## Ağdam təhsilinə bayram ərməğanı

Respublika günündə Prezident İlham Əliyev Qarabağ, ümumiyyətlə, bütün Azərbaycan təhsil ictimaiyyətinin sevincinə səbəb olan daha bir qədim təhsil müəssisəsinin, erməni vandalları tərəfindən dağıdılan Ağdam şəhər 1 saylı orta məktəbin yeni binasının təməlini qoydu.

1883-cü ildə Əsgər bəy Eyvazov tərəfindən açılan Ağdam 1 nömrəli məktəb müxtəlif ünvanlarda fəaliyyət göstərib, 1904-cü ildən isə sonralar tədris istehsalat kombinatının yerləşdiyi binaya köçüb və 1949-cu ilə qədər burada fəaliyyət göstərib. 1909-1929-cu illər ərazində məktəbin direktoru, Ağdamın Gülablı kəndindən olan Abbas İsmayılovun mütərəqqi səyləri nəticəsində təhsil müəssisəsi əvvəlcə ikiillik, beşillik, sonra yeddiillik, nəhayət orta məktəb səviyyəsinə çatdırılıb.

Akademik Cəmil Quliyev, AMEA-nın müxbir üzvü, SSRİ Dövlət mükafatı laureatı, texnika elmləri doktoru Rafiq Əliyev, Azərbaycan SSR Elmlər Akademiyasının müxbir üzvü, geologiya-mineralogiya elmləri doktoru Xudu Məmmədov, keçmiş SSRİ Tibb Elmləri Akademiyasının müxbir üzvü, akademik, tibb elmləri doktoru Adilə Namazova, biologiya elmləri doktoru Tofiq Mikayılov, fəlsəfə elmləri doktoru Cahid Quliyev, akademik Dilqəm Tağıyev və onlarca başqa elm xadimi məhz Ağdam şəhər 1 saylı orta məktəbin fəxarətli məzunlarıdır.

1948-1949-cu dərs ilindən sonra 1 nömrəli orta məktəb şəhər tədris istehsalat kombinatının binasından sonuncu fəaliyyət göstərdiyi binaya köçüb və 1993-cü ildə erməni qəsbkarlarının işğalına qədər fəaliyyət göstərib. Daha sonra isə fəaliyyətini köçkün məktəb kimi davam etdirib...

## Bütün məktəblərdə Qələbə lövhələri asılacaq...

Mayın 28-də Prezident İlham Əliyevin Ağdam şəhər 1 saylı orta məktəbin yeni binasının təməlini qoyması ilə Qarabağın bu qədim təhsil ocağı da yeni nəfəs aldı... Layihədə məktəb üçün üçmərtəbəli bina və plana uyğun olaraq, inzibati hissə, tədris korpusları, idman meydançası, texniki zona təşkil olunması nəzərdə tutulub. 960 nəfər şagird üçün nəzərdə tutulan məktəbdə 18 sinif otağı, 37 fənn kabineti, kimya, fizika, biologiya laboratoriyaları yaradılacaq. Məktəbdə təhsil üçün hər cür şərait, bütün texniki imkanlar olacaq.

Ali Baş Komandan İlham Əliyevin Qarabağı azadlığa qovuşdurması, Qarabağın qədim ənənələrə malik məktəblərinin təməlini qoyması məcburi köçkün müəllim və şagirdlərə bayram əhvalı yaşatdı...

Daha heç vaxt məcburi köçkünlük həyatı yaşayan məktəblərimiz, şagirdlərimiz, müəllimlərimiz olmayacaq...

Bundan sonra bütün məktəblərdə, sinif otaqlarında işğal təqvimini göstərən qara lövhələr yığışdırılaraq yerində Xocalının, Şuşanın, Ağdamın, Laçının, Kəlbəcərin, Zəngilanın, Qubadlının, Cəbrayılın... düşmən tapdağından azad edildiyi günlərin al-qırmızı Qələbə lövhəsi asılacaq...

***Yasəmən MUSAYEVA,* *"Azərbaycan"***

# Hər daşı-qayası tarixi yadigarlar olan Laçın

## Dağlar diyarındakı tarixi, dini, mədəniyyət abidələri 30 il ərzində erməni vandalları tərəfindən məhv edildi





**Ulu babalarımızın çox dəyərli yadigarları hesab edilən maddi-mədəniyyət nümunələri respublikamızın əksər ərazilərində yetərincə var. Ona görə də ölkəmizə səfər edən səyyahlar Azərbaycanın tarixini özündə əks etdirən qədim dini və mədəni abidələrə heyranlıqlarını gizlədə bilməmiş və bu barədə dəfələrlə öz xatirələrində qeyd etmişlər.**





Dağların zirvəsində əsrlərin "dizini qatlayan", minilliklərdən soraq verən qalalar məskəni Laçının vəsfi şeirin, musiqinin ritminə köklənib. Amma son illər bəstələnən bir mahnı da var ki, Laçının təkcə təbiətini deyil, taleyini də ifadə edib. Doğma yurdundan uzaq düşüb xiffət çəkərək, sevilən mahnıları ilə xatirələrdə yaşayan Məhəbbət Kazımovun haraylı səsində "Laçınım... Laçınım... Laçınım mənim" təkcə bu rayonda doğulanları deyil, o yerlərin həsrətini çəkənləri də yandırıb-yaxırdı.

Laçın da, digər işğal edilmiş ərazilərimizdən biri kimi, düşmən məkrinin, çirkin siyasətin qurbanı olmuşdu. Bu ulu diyarın işğalının hər ildönümlərində o yurdlarda doğulmuşların qəlbindən qara qanların necə axmasını təsəvvür etmək o qədər də çətin deyildi. Yazın gəlişi ilə dağlar yaşıl donuna bürünüb aran ellərini yaylağa haraylayanda Şuşanın arxadayağı, söykənəcəyi olan Laçının didərginlərinin qəlbindən qara qanlar axardı. Şükür, bu dərdə çarə olan Qələbə, Müzəffər Ordumuz və Ali Baş Komandanımız tərəfindən çalındı... Bu gün Şuşada "Xarıbülbül" musiqi festivalı keçirilir. Laçınlıların isə üzügeri qayıdacaq köç karvanı yola düzülür.

Vaxtilə Soltan bəyin qarşısında baş əyən erməni qaçaq-quldurlarının törəmələri 28 il o yerləri taladı. Xalqımızın ümumi sərvəti olan dağlarımızın yağmalanması ilə dəyəri milyardlarla ölçülən təbii sərvətlərimiz daşnakların əlinə keçdi. Təkcə maddi sərvətlər beşiyi deyildi Laçın. Burada minilliklərin, əsrlərin yadigarı olan maddi mədəniyyət abidələri - mənəvi sərvətlərimiz var idi. Təəssüflər olsun ki, sözdə humanizmin təbliği ilə məşğul olan beynəlxalq təşkilatlar belə talanların qarşısını almaqda aciz göründü. Tarixin yaddaşı olan abidələr bu yerlərdə də saxtalaşdırıldı. Bir sözlə, Azərbaycanın mədəni irsini hədəf seçən ermənilər işğal altında qalan maddi-mədəniyyət abidələrini qəddarlıqla məhv edirdilər.

1992-ci il may ayının 18-də erməni işğalçıları rayonun yüzlərlə mədəni-məişət obyektini, onlarca qəsəbə, kənd və tarixi abidələrini dağıtdı. İşğal nəticəsində 63 min 341 Azərbaycan vətəndaşı öz yurdundan didərgin salındı, 300-dən artıq hərbi və mülki şəxs həlak oldu və ya itkin düşdü. Rayonda 154 məktəb, yüzlərlə tarix-mədəniyyət abidəsi işğal altında qaldı. Şuşanın Turşsu deyilən ərazisindən və Ermənistan istiqamətindən hücuma keçən düşmən geostrateji mövqeyə malik olan Laçını işğal etməsi ilə Azərbaycan iqtisadiyyatına ciddi ziyan vurdu.

Rayondakı Qaragöl Dövlət Təbiət Qoruğu və Dövlət Təbiət Yasaqlığı da işğal altında qalmışdı. Laçının işğaldan azad edilməsindən sonra Azərbaycan Ordusu Qaragölün də tarixi Azərbaycan torpaqları olması ilə bağlı sənədə əsasən öz mövqelərini möhkəmləndirdi.

Ümumi sahəsi 240 hektar olan qoruqda 68 növdən və 27 ailədən ibarət bitki örtüyü vardı. 1961-ci ilin noyabr ayında heyvan və quşları qoruyub saxlamaq və artırmaq məqsədilə yaradılan Dövlət Təbiət Yasaqlığının ərazisində cüyür, dağkeçisi, çöldonuzu, ayı, turac, kəklik, qaratoyuq növləri olub.

Laçın dağlarında qədim və möhtəşəm mədəniyyət abidələri ilə təbiət bir-birini sanki tamamlayır. Cicimli, Güləbird, Soltanlar, Zeyvə, Malıbəy, Bülövlük, Araflı, Əliqululu, Malxələf, Hüsülü, Kosalar, Seyidlər, Pircahan və digər kəndlərdəki tarixi abidələr (12 qoç, 28 at fiquru, 36 müxtəlif süjetli yazılar və rəsmlər, sal daş, müxtəlif dövrlərdə ərəb əlifbası ilə yazılmış, bir-birinə bənzəməyən sənət rəmzləri həkk edilmiş qəbirüstü daşlar, məşhur Sarı Aşığın sevgilisi Yaxşının məzarı) bu torpaqlarda min illər boyu yaşayan əcdadlarımızın bizə yadigar qoyduğu nişanələr idi.

Rayonun Cicimli kəndindəki məbəd, qədim anbar, Güləbirddə Sarı Aşığın qəbirüstü ziyarətgahı, rayon tarix-diyarşünaslıq muzeyi əsrlərin canlı salnaməsi idi. Muzeydə toplanmış nadir eksponatlar Laçının zəngin tarixi keçmişi haqqında dolğun təsəvvür yaradırdı. Təəssüf ki, Laçının işğalı nəticəsində bu tarixi incilər də təcavüzün qurbanına çevrildi. Bütün bunlar az imiş kimi, milli mədəniyyət abidələrimiz olan qala və məbədlər saxtakarcasına erməniləşdirilir və ermənipərəst qüvvələr isə buna göz yumurdular. Belə təcavüzə məruz qalan abidələrdən Laçının işğalından sonra saxta erməni kilsəsi kimi təqdim olunan Ağoğlan abidəsi, Böyük Vətən müharibəsi iştirakçılarının xatirə kompleksinin erməniləşdirilməsi, şəhərin qərb istiqamətindən çıxışında tikilmiş abidə - "Qala qapısı" (üzərində erməni xaçı) və s. dediklərimizə əyani sübutdur.

Laçının ərazisindəki memarlıq abidələrinin əksəriyyəti Qafqaz Albaniyası dövrünün yadigarlarıdır. Bu yerlərdəki müqəddəs məkanlara gəlincə isə, Alı Xəlifə ocağı Laçının Böyük Seyidlər kəndində idi. Qarabağın ən ağır seyidlərindən sayılan Alı Xəlifə həmin kənddə dünyasını dəyişmişdi və məzarı üstündə sərdaba tikilmişdi. Laçının müqəddəs yerlərindən sayılan Böyük Seyidlər kəndindəki Seyid Hüseyn ziyarətgahı da belələrindən idi. Bu kənddəki ziyarətgahların sırasına daxil olanlardan biri də "Güllü qəbir" piri idi ki, orada Hacı İbrahim ağa dəfn edilmişdi. Məlumatlara əsasən, o, Qarabağ ellərinin ağır övliyalarından sayılan Xudabəndə Xəlifənin nəvəsi idi.

Ağoğlan qəsri Laçının Minkənd çayının kənarında, hündür bir yerdədir. Cicimlidə məbəd, qədim anbar, Güləbirddəki Sarı Aşığın qəbirüstü ziyarətgahı, Zeyvədə Şeyx Əhməd, 1-ci və 2-ci Soltanbaba, Minkənddə XV əsr məbədi, Qarıqışlaqda Dəmirovlu pir-məbədi, Bülövlük kəndinin şimalındakı qədim Kişpəyədə və Piçənisdəki alban məbədləri, Xan qəbiristanlığındakı Zəngəzurun sultanları Qara Murtuza bəyin, 1-ci Alməmmədin, 2-ci Alməmmədin türbələri, Şeyx Şamillə dostluq etmiş, ona kömək göstərmiş Cəbrayıl bəyin türbəsi, Araflıda Murtuza Sultanın anasının türbəsi, Pircahan çayında Məşədi Mehralının arxitekturalı və Minkənd körpüləri kimi tarixin nadir inciləri erməni vandalları tərəfindən darmadağın edilib.

Kəndlərdə əsrlərin və qərinələrin yaşıdı abidələr, dağlardakı qalalar uzun illər yadellilərin hücumlarından qorunsa da, 1992-ci ildən başlayaraq daha ağır zərbə aldı, daş-divarlarındakı yaddaş tarixləri silinərək dünyaya "qədim erməni xalqının yazılı abidələri" kimi təqdim edildi.

***Məhəmməd NƏRİMANOĞLU,* *"Azərbaycan"***











Əvvəli 1-ci səh.

# Silahı kamera və mikrofon olanlar

## Onlardan 9 nəfəri şəhidlik zirvəsinə yüksəlib

Müharibədə terror

Ölkələr fəth edən Napoleon Bonapart hərbi qüvvələri xalqın və dövlətin müdafiəsi üçün kifayət hesab etməyib. Ordu ilə yanaşı, özünü müdafiə edən xalq məğlubedilməzdir deyib. Azərbaycan da cəlb edildiyi müharibədə, vətən uğrunda savaşda xalqa arxalandı. Xalq ordunun, Ali Baş Komandanın yanında oldu, dayaq durdu.

Çox təəssüf ki, bu yolda dinc sakinlərdən də itkilərimiz az olmadı. Müharibə həm də dinc sakinlərin məhvinə yönəlmiş hərbi cinayətdir. Müharibə qanunlarına görə, təcili yardım, həkim personalı, dinc sakinlər, uşaqlar, xidməti vəzifəsini yerinə yetirən media atəşə tutulmamalıdır. Sadaladığımız hallar və qanunlar pozulursa, demək, müharibədə terror var, onu aparan ordu deyil, terroristdir. Bizə çox tanış situasiyadır, çünki 1988-ci ildən bəri vətənimizə təcavüz, torpaqlarımızın işğalı məhz terrorla həyat keçirilib. Erməni terrorçuları dinc sakinləri, təcili yardım maşınlarını, hətta müharibə bölgəsindən uzaqda olan şəhərlərimizi atəşə tutub, terror aktları həyata keçiriblər. Yüzlərlə əlisilahsız insan terror aktlarının qurbanı olub.

Bu dəfə mövzumuz Bakıda, Gəncədə, Tərtərdə, Naftalanda, Mingəçevirdə ermənilərin həyata keçirdikləri terror aktları, metrolara, avtobuslara qoyulan partlayıcılar məhz iş başında olan, əlində silah deyil, çəkiliş kamerası olan jurnalistlərin qətlə yetirilməsinə yönəldilib...

1988-ci ildən bəri Qarabağ müharibəsində 13 jurnalist erməni terroruna məruz qalıb. Onlardan 9-u şəhid olub.

## İlk şəhid jurnalist həm də qadın idi

"Molodyoj Azerbaydjana" qəzetinin müxbiri Salatın Əsgərovanın qətlə yetirilməsi xəbəri o vaxt cəmiyyətdə böyük sarsıntı yaratmışdı. Heç kim ağlına sığışdıra bilmirdi ki, jurnalisti, əlisilahsız qadını bu cür amansızlıqla qətlə yetirmək olar. Salatın Əsgərova 1991-ci il yanvarın 9-u Laçından Şuşaya çalışdığı qəzet üçün reportaj hazırlamağa gedərkən Qaladərəsi kəndi yaxınlığında erməni terroristlərin qurduqları pusquya düşüb. Ermənilər onun oturduğu maşını həm avtomatdan, həm də snayper tüfəngindən qabaqdan, arxadan və soldan güllə yağışına tutublar. İndi gördünüzmü, bu qədər amansız terrorçularla üz-üzəydik.

İlk şəhid jurnalist olan Salatın Əsgərova ölümündən sonra Azərbaycanın Milli Qəhrəmanı fəxri adına layiq görülüb.

## 20 noyabr faciəsində itirdiklərimiz

1991-ci ildə xidməti vəzifəsini yerinə yetirən daha üç jurnalist terrora məruz qalıb. Bu dəfə ermənilər sülhməramlıların da olduğu vertolyotu hədəf götürmüşdülər. Hadisə 1991-ci ilin 20 noyabrında Qarabağda Xocavənd rayonunun Qarakənd kəndi yaxınlığında baş verib. Həlak olanlar arasında Dövlət katibi Tofiq İsmayılov, baş prokuror İsmət Qayıbov, dövlət müşaviri, sabiq daxili işlər naziri Məhəmməd Əsədov, millət vəkilləri Vaqif Cəfərov və Vəli Məmmədov, baş nazirin müavini Zülfü Hacıyevlə yanaşı, jurnalistlər - Osman Mirzəyev, Alı Mustafayev və işıqçısı Arif Hüseynzadə, Azərbaycan Televiziyasının operatoru Fəxrəddin Şahbazov da var idi. Ümumilikdə, qəza nəticəsində 22 nəfər həlak olub - dövlət xadimləri, say-seçmə insanlar, o cümlədən silahı kamera və mikrofon olan jurnalistlər.

Osman Mirzəyev (1937-1991) Azərbaycan televiziya məkanında ilk bədii-publisistik, ictimai-siyasi "Dalğa" verilişinin yaradıcılarından olub. Həqiqətləri jurnalist şərəf və ləyaqəti ilə olduğu kimi yazan nüfuzlu qələm sahibi idi.

Ölümündən sonra Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülən Alı Mustafayev (1952-1991) Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Şirkətinin əməkdaşı idi. Qarabağ müharibəsi dövründə qaynar nöqtələrdən dəfələrlə materiallar hazırlayıb. "İlin ən yaxşı jurnalisti" mükafatına layiq görülüb.

Onlarla birgə vertolyotda Azərbaycan Teleradio Şirkətinin operatoru, şəhidliyindən sonra Azərbaycanın Milli Qəhrəmanı olmuş Fəxrəddin Şahbazov (1950- 1991) da vardı. Alı Mustafayevin reportajlarını o lentə alırdı. Fəxrəddin Şahbazov Qarabağa qaynar nöqtələrdən reportajlar hazırlamağa könüllü gedərdi. Döyüş bölgələrində çox təhlükələrlə üzbəüz gəlmişdi. Qarakənd səmasındakı terror hadisəsi isə onun üçün son oldu, işıqçı dostu Hüseynzadə Ariflə şəhidliyə ucaldı. 21 yaşlı (1970-1991) Arif Hüseynov orta məktəbi bitirəndən Azərbaycan Dövlət Teleradio Şirkətində işıqçı işləyirdi. 1991-ci il noyabrın 19-u həmin vertolyota onu taleyi gətirib. Ölümündən sonra Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülüb. Bakı şəhərində 20 saylı orta məktəb onun adını daşıyır.

## Qələmi süngüyə dəyişən həmkarımız

Bakı Dövlət Universitetinin Jurnalistika fakültəsinin məzunu, Azərbaycanın Milli Qəhrəmanı Kazımağa Kərimov (1951-1992) bir müddət "Azərbaycan məktəbi" jurnalında, "Azərbaycan müəllimi" qəzetində çalışıb. İşini, evini, ailəsini və çox sevdiyi, uca tutduğu peşəsini qoyub könüllü cəbhəyə yollanıb. Goranboy rayonunun Gülüstan, Qaraçinar, Manas, Şəfəq, Tap Qaraqoyunlu kəndləri uğrunda gedən döyüşlərdə iştirak edib. Döyüşlərdə ağır yaralanan komandir 1992-ci il iyunun 15-də dünyasını dəyişib.

Həmin il, həmin ay və həmin gün daha bir jurnalist şəhid olub: telejurnalist, sonradan Azərbaycanın Milli Qəhrəmanı olan Çingiz Mustafayev. Qəhrəman jurnalist 1992-ci ilin iyun ayının 15-də Xocalı rayonunun Naxçıvanlı kəndində çəkiliş zamanı aldığı mərmi qəlpəsindən şəhid olub.

## Erməni terroru davam edir

2020-ci ilin 27 sentyabrında başlayan, 44 gün davam edən Vətən müharibəsinə qismən səfərbərlik çərçivəsində cəlb edilmiş, döyüşlərdə olmuş jurnalistlərimiz də var. 27 nəfər jurnalist ehtiyatda olan zabit kimi döyüşlərdə iştirak edib. Onların 2 nəfəri döyüşlər zamanı yaralanıb və müxtəlif dərəcəli xəsarətlər alıblar.

Həqiqi hərbi xidmətdə olan jurnalist, ATV televiziysının keçmiş əməkdaşı Davud Qurbanov oktyabrın 5-də şəhid olub.

İyunun 4-də qələmi və kamerası ilə xidməti vəzifələrini yerinə yetirən iki həmkarımız erməni terrorunun qurbanı oldular. "Kamaz" markalı sərnişin avtomobilinin Kəlbəcər rayonunun Susuzluq kəndi istiqamətində tank əleyhinə minaya düşməsi nəticəsində AZƏRTAC xəbər agentliyinin əməkdaşı Məhərrəm İbrahimov və AZTV-nin operatoru Sirac Abışov həlak oldular.

Müharibə qurtarıb, döyüşlər getmir, amma erməni terroru davam edir. Janna Darkın sözüdür - bütün müharibədə qələbə, ilk olaraq insan zehnində qazanılır. Azərbaycan müharibədə qələbə qazanıb, torpaqlarını işğaldan azad edib. Bu, dövlətimizin və xalqımızın haqqı idi. Xalqımızın zehnində illərlə bu qələbəyə hazırlıq getmişdi və 44 günlük Vətən müharibəsində bu missiya yerinə yetirildi. Düşmənin beyni qələbə qazana bilməz, çünki onun haqqı deyil, zehni qələbə olmasa, fiziki qələbə də mümkünsüzdür. Çıxış yolunu terrorda görən düşmən çox uzağa gedə bilməz. Çox keçməz, yerlərində oturdulub layiqi olduğu cəzanı yenə alacaq.

Hər millət taleyi üçün öz qılıncına güvənməlidir. Biz həm də öz Ali Baş Komandamıza, xalqımıza, bizi üstündə saxlayan torpağa güvənirik.

***Ramilə QURBANLI,* *"Azərbaycan"***

# Onlar bizə əmanətdir!







**“YAŞAT” Fondunun Vətən müharibəsindən sonra dünyaya gələn şəhid övladları üçün layihəsi davam edir.**

Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin İctimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, şəhidlərimiz Fərid Nağıyevin övladı Anayın, Vüsal Hüseynovun övladı Nadirin, Qubat Əliyevin övladı Qubatın zəruri xərcləri fond tərəfindən qarşılanıb.

Bu məqsədlə 1000 AZN analara təqdim olunub və dünyaya yeni göz açan körpələrin adına 5000 AZN-lik hesab açılacaq. Həmin hesaba vəsait fonda edilən ianələr hesabına toplanmış məbləğdən köçürülür.

Həmin məbləğin üzərinə mütəmadi olaraq faiz toplanılacaq və şəhid övladı 18 yaşına çatdıqdan sonra toplanan məbləği özü hesabından çıxara biləcək.

Qeyd edək ki, bankla ana arasında bağlanmış müqaviləyə əsasən, bəzi zəruri hallarda ana həmin vəsaiti daha tez çıxara biləcək. Həmçinin ana həmin məbləği istənilən valyutaya da dəyişə bilər.

Allah şəhidlərimizə rəhmət etsin!

Xatırladaq ki, “YAŞAT” Fonduna müraciət etmək və fondun fəaliyyəti ilə tanış olmaq üçün yashat.gov.az portalı istifadədir.

Fondun hesabatlılığı ilə tanış olmaq üçün keçid: https://yashat.gov.az/report/tableau

Həmçinin fondun 8110 “Çağrı Mərkəzi” fəaliyyət göstərir.

# İspaniya Strateji və Beynəlxalq Araşdırmalar Fondu mətbuat nümayəndələrinə qarşı hərbi cinayəti pisləyib

**“Biz Azərbaycanın Kəlbəcər rayonunda iki azərbaycanlı jurnalistin və icra hakimiyyəti nümayəndəsinin minaya düşərək faciəvi şəkildə həlak olmalarına görə çox təəssüfləndiyimizi bildirir və onların ailələrinə başsağlığı veririk”.**

İspaniya Strateji və Beynəlxalq Araşdırmalar Fondunun (FESEI) direktoru Migel Alvares de Eulate Moreno bu sözləri AZƏRTAC-a müsahibəsində söyləyib.

M.Alvares deyib: “FESEI Fondu mətbuat nümayəndələrinə qarşı bu hərbi cinayəti pisləyir. Ümidvarıq ki, bu cinayəti törədənlər cəzalarını alacaqlar. FESEI Fondu regionda qan tökülmədən firavanlıq imkanları və Cənubi Qafqazda dinc gələcək üçün mühüm element olan sülhə və etimada şərait yaradan strategiyalara töhfə verməyə hazırdır”.

Qeyd edək ki, iyunun 4-də səhər saat 11 radələrində Azərbaycanın işğaldan azad edilmiş Kəlbəcər rayonuna ezam edilmiş jurnalistlərin olduğu Kamaz avtomobilinin Susuzluq kəndi ərazisində tank əleyhinə minaya düşməsi nəticəsində 3 nəfər - AzTV-nin operatoru Sirac Abışov, Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC) müxbiri Məhərrəm İbrahimov, Kəlbəcər Rayon İcra Hakimiyyətinin Susuzluq kənd inzibati ərazi dairəsi üzrə nümayəndəsinin müavini Arif Əliyev həlak olub, müxtəlif dərəcəli bədən xəsarətləri alan daha 4 nəfər xəstəxanaya yerləşdirilib.

# *Misir nəşri:* Sivil dünya azərbaycanlı jurnalistlərin həlak olmasına biganə qalmamalıdır

“Müharibə bitib, amma humanizm prinsiplərini təbliğ edən sivil dünyanın gözləri önündə mülki azərbaycanlılar öz torpaqlarında həlak olurlar. Ermənistan beynəlxalq aləmin susqunluğu şəraitində müsəlman azərbaycanlılara qarşı cinayətlərini davam etdirir. Sivil dünya AZƏRTAC-ın və Azərbaycan Televiziyasının əməkdaşlarının Kəlbəcərdə minaya düşərək həlak olmalarına biganə qalmamalıdır”.

AZƏRTAC xəbər verir ki, bu fikirlər “Asiaelyom” informasiya agentliyinin baş redaktoru, tədqiqatçı-jurnalist Əbubəkir Əl-Məcdin agentliyin saytında və “Rayetmısr” portalında dərc olunmuş məqaləsində yer alıb.

Müəllif yazır: “İki həmkarımız Ermənistanın işğal etdiyi Azərbaycan torpaqlarında basdırdığı və bu günədək xəritələrini verməkdən imtina etdiyi minaların qurbanı oldu. Daha iki ruh öz torpaqlarını azad edən şəhid azərbaycanlı əsgərlərin müqəddəs ruhlarına qovuşdu. “Silahları” jurnalist qələmi və videokamera olan, ermənilərin işğalı zamanı vəhşicəsinə dağıdılmış yaşayış məntəqələrini lentə alan peşəkar media nümayəndələri uzun illərdir davam edən erməni təxribatının növbəti dinc qurbanları oldular. İşğaldan azad edilmiş ərazilərdə qan tökülməsi davam edir və dünya buna susur. Dünya mətbuatı bu hadisəni bir neçə cümlə ilə yaydı; “azərbaycanlı jurnalistlər minaya düşərək həlak olublar”. Amma bunun arxasındakı faciəni dərk etmək lazımdır”.

Beynəlxalq ictimaiyyətin Ermənistanın davam edən təxribatlarına biganə qalmasını qınayan müəllif qeyd edir: “Demokratiya carçısı olan ölkələr öz mənafeləri naminə hərəkət edirlər. Onlar müxtəlif dövlətlərdə insan hüquqlarının pozulması ilə bağlı bəyanatlar səsləndirir, hesabatlar hazırlayır, bundan təzyiq aləti kimi istifadə edirlər. Belə olan halda, yüksək humanizm prinsiplərindən ağız dolusu danışan bu ölkələr, habelə təşkilatlar Ermənistana niyə təzyiq göstərmir, ondan dinc əhalinin həlak olmasına səbəb olan minalanmış ərazilərin xəritələrini niyə tələb etmirlər? Erməni xislətinə, bu qəddar faşistlərin ümumi xarakterinə əsaslanaraq deyə bilərik ki, həmin ərazilərdə basdırılmış minaların sayı xeyli çoxdur. Nəzərə almaq lazımdır ki, qana susamış Ermənistanın bu əməlləri yeni faciələrə səbəb olur”.

Ermənistanın sərhəddə də təxribatları davam etdirdiyini diqqətə çatdıran Əl-Məcd vurğulayır ki, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə torpaqlarını işğaldan azad etmiş qüdrətli Azərbaycan Ordusu istənilən an düşmənə sərt və layiqli cavab verə bilər.

# KABAR Agentliyi Kəlbəcərdə azərbaycanlı jurnalistlərin faciəli ölümündən yazıb

Qırğızıstanın KABAR Milli Xəbər Agentliyi Kəlbəcər rayonunda azərbaycanlı jurnalistlərin həlak olması barədə AZƏRTAC-a istinadla məqalə dərc edib.

Məqalədə qeyd olunur ki, iyunun 4-də Kəlbəcər rayonunun Susuzluq kəndi ərazisində çəkiliş aparan Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC) və Azərbaycan Televiziyasının (AzTV) əməkdaşları minaya düşüblər. Tank əleyhinə minanın partlaması nəticəsində AZƏRTAC-ın müxbiri Məhərrəm İbrahimov və AzTV-nin operatoru Sirac Abışov həlak olublar.

Məhərrəm Əli oğlu İbrahimov 1982-ci il aprelin 16-da Ermənistanın Krasnoselsk rayonunun Ardanış kəndində anadan olub. Orta məktəbi bitirdikdən sonra 1999-cu ildə Ali İctimai-Siyasi Kollecin Jurnalistika fakültəsinə daxil olub. Ali məktəbi bitirdikdən sonra 2003-2004-cü illərdə DİN-in Daxili Qoşunlarında hərbi xidmət keçib.

2004-cü il sentyabrın 1-dən AZƏRTAC-da müxbir, 2007-ci il yanvarın 16-dan aparıcı müxbir işləyib.

KABAR Agentliyi həlak olanların doğmalarına və yaxınlarına, həmçinin Azərbaycan Dövlət İnformasiya Agentliyinə əməkdaşının həlak olması ilə əlaqədar başsağlığı verir.

Jurnalist araşdırması

# Ölmüş bədən başqalarına yeni həyat verə bilər

## Orqan transplantasiyasına ölkəmizdə böyük zərurət olsa da, maarifləndirmə işi hələ çox zəifdir

*Əvvəli 1-ci səh.*

“Anamdan başqa bir neçə qohumum da donor olmaq üçün müraciət etdi, lakin uyğunsuzluq səbəbindən əməliyyat baş tutmadı. Ümidim indi yalnız beyin ölümü keçirən insanlaradır. Nə vaxtsa belə bir donor olarsa, xilas olacam. Ancaq axtarışlar nəticə verməzsə, öləcəm...”

### Orqana ehtiyacı olanların yalnız 10 faizi əməliyyat olunur

Orqan transplantasiyasına olan tələbat yalnız Azərbaycanda deyil, hətta dünyanın inkişaf etmiş ölkələrində belə tam ödənilmir. Bunun əsas səbəbi transplantasiya üçün donor orqanlarının çatışmazlığıdır. Böyrək və qaraciyər transplantasiyasına ehtiyacı olan xəstələrin yalnız on nəfərindən birində bu əməliyyatlar icra edilir.

Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) məlumatına görə, təkcə 2018-ci ildə dünyada 146 840 orqan transplantasiyası həyata keçirilib. Bu əməliyyatların böyük hissəsini böyrək və qaraciyər transplantasiyası təşkil edib. ÜST-ün qiymətləndirməsinə görə, hazırda dünyada yerinə yetirilən transplantasiya əməliyyatları mövcud tələbatın 10 faizini ödəyir.

Dünyada böyrək transplantasiyalarının 36,2, qaraciyər transplantasiyalarının 19,2 faizi canlıdan canlıya edilməklə həyata keçirilir. Lakin dünyanın heç bir ölkəsində bu əməliyyatlara olan ehtiyac yalnız canlıdan canlıya edilməklə tam ödənilmir. Əməliyyatların icrası üçün meyit orqanlarından da istifadə edilir.

### Meyitdən donor kimi istifadəyə icazə verilib

Meyitin orqanlarından donor kimi istifadəyə artıq Azərbaycan qanunvericiliyi icazə verir. Prezident İlham Əliyevin ötən ilin sonlarında təsdiqlədiyi “İnsan orqan və toxumalarının donorluğu və transplantasiyası haqqında” qanuna görə, meyit donordan transplantasiya məqsədilə ürək, ağciyər, böyrək, qaraciyər, mədəaltı vəzi, mədə, bağırsaqlar, uşaqlıq, yuxarı və aşağı ətraflar, sümüklər, dəri-fassiya-əzələ kompleksi və onların seqmentləri, sümük iliyi, gözün buynuz qişası və kök hüceyrələri götürülə bilər.

Yeri gəlmişkən qeyd edək ki, pasiyentdə beyin ölümünün baş verdiyi təsdiqlənərsə, o, ölmüş sayılır. Bu zaman xəstənin həyati vacib funksiyalarının dəstəklənməsinin dayandırılması evtanaziya sayılmır.

Bu halda ölkə qanunvericiliyinə uyğun şəkildə meyitin orqan və toxumaları transplantasiya məqsədilə istifadə oluna bilər.

### İslam orqan köçürülməsinə müsbət yanaşır

Azərbaycan İlahiyyat İnstitutunun müəllimi, fəlsəfə üzrə fəlsəfə doktoru İbrahim Quliyev bildirir ki, insan orqan və toxumalarının transplantasiyası (əzaların köçürülməsi) mövzusu müasir islam şəriətində bütün təfərrüatı ilə araşdırılıb, onun tibbi şərtləri və qaydaları olduğu kimi, şərtləri və qaydaları da müəyyən edilib.

Onun sözlərinə görə, Fiqh kitablarında transplantasiya ilə əlaqəli yazılanlardan bu nəticəyə gəlmək olar ki, dinimizdə başqalarının həyatını xilas etmək zəruri məsələlərdəndir. Buna görə də ticarət və ya estetik məqsədlər üçün deyil, yalnız başqasının canını xilas etmək üçün orqan köçürməsinə icazə verilir. Orqanını verən insanın özü ciddi əziyyətə düşməməli, özünü şikəst etməməlidir. Belə ki, əgər insan sağ ikən onun bir əzasının kəsilib digər bir şəxsə köçürülməsinə razı olsa belə bu işi icra etmək (məsələn, bir qolunun, ayağının və ya gözünün köçürülməsi kimi) onun özünə ciddi zərər gətirərsə, icazəli deyil. Amma əgər şəxsin özünə ciddi zərər gətirməzsə, icazəlidir. Orqanını verən şəxsin özünün və yaxud da yaxınlarının razılığı olmalıdır.

İlahiyyatçı əlavə edir ki, şəriətdə heyvanların əzasının insana köçürülməsi icazəlidir. Hətta murdar hesab edilən heyvanların orqanlarından istifadə etmək belə icazəlidir və onlar köçürüldükdən sonra insanın orqanlarından biri olaraq pak hesab edilir.





### Meyitdən orqan köçürüldükdən sonra transplantasiyanı genişləndirmək mümkün olacaq

Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev düşünür ki, Azərbaycanda transplantasiyanın geniş tətbiq edilməməsinin səbəblərindən biri meyitdən orqanların köçürülməməsidir: “Azərbaycanda canlı donordan yalnız qaraciyər və böyrək transplantasiyası üçün orqan köçürülür. Transplantasiya üçün ölü donorlardan geniş spektrdə istifadə təcrübəsi dünyada var. Meyitdən orqan köçürüldükdən sonra Azərbaycanda da bu iş daha geniş şəkildə qurulacaq”.

Komitə sədri buna nail olmaq üçün regionlarda zona mərkəzlərinin yaradılmasını mümkün sayır: “Məsələn, Qazaxda baş verən bir yol qəzası zamanı kimsə dünyasını dəyişibsə, orqanlarının köçürülməsi üçün o, Bakıya deyil, regional mərkəz olaraq Gəncəyə gətirilə bilər. Bunun üçün ölkədə 3-4 regional mərkəzin yaradılması bəs edər. Bundan başqa, transplantasiya işini həyata keçirən əsas heyət formalaşdırılmalı, sağlığında orqanlarının bağışlanmasını vəsiyyət edənlərin vəsiyyətnamələrinin hansı formada olması, vəsiyyət yoxdursa, ailə üzvlərinin bu işi hansı formada keçirməsi üçün sənədlər hazırlanaraq qəbul olunmalıdır. Daha sonra vətəndaşlar arasında geniş maarifləndirmə işləri aparılmalıdır. Cəmiyyətdə bu məsələ ilə bağlı mənfi düşüncələrin aradan qaldırılması istiqamətində təbliğat aparılmalıdır. Bu proseslər həll olunduqdan sonra meyitdən orqanın köçürülməsi işinin icrasına başlanıla bilər”.

### 10 ildə 992 şəxs orqanını dəyişib

Ümumi cərrah, transplantoloq, tibb üzrə fəlsəfə doktoru Mircəlal Kazımi bildirir ki, son 10 ildə 992 xəstə üzərində orqan transplantasiyası əməliyyatı aparılıb. Onların 230-u qaraciyər, 762-si böyrək transplantasiyasıdır. Qaraciyər transplantasiyası edilənlərin təxminən 60 faizi kişi, 40 faizi qadın, böyrək üzrə isə bu rəqəm müvafiq olaraq 62 faizi qadın, 38 faizi kişidir.

Xəstələrin qaraciyər transplantasiyasının səbəblərinə gəldikdə həkim qeyd edir ki, belə xəstələrin böyük əksəriyyətinin qaraciyərində problem onun hepatit B və C-yə yoluxmasından sonra baş verib: “Çox təəssüf ki, insanlar nədənsə hepatit B əleyhinə peyvənd olunmağa cəhd göstərmirlər. Əgər bu peyvənd vurularsa, xəstələr özlərini hepatit B ilə əlaqəli olan qaraciyər xərçəngindən qoruyar və nəticədə transplantasiyaya ehtiyac duymazlar”.

Mircəlal Kazımi əlavə edir ki, transplantasiyaya ehtiyacı olan xəstələr arasında uşaqlar da çoxdur. Onların bir qismi orqan çatışmazlığı üzündən əməliyyat oluna bilmirlər. İndiyədək isə qaraciyər transplantasiyası edilənlərin 36-sı uşaq olub.

Transplantoloq qeyd edir ki, Azərbaycanda donorlar əsasən ailənin üzvləri olurlar. Amma bəzən ailədə də uyğun donor olduğu zaman insanlar öz orqanlarını vermək istəmirlər: “Bunun səbəblərini normal qarşılamaq lazımdır. Donorlar tam sağlam insanlardır. Heç bir ehtiyac duyulmadan ağır bir əməliyyata girmək, orqanının bir hissəsini və ya tam olaraq kiməsə vermək insanlar üçün çətin olur. Onlar bu emosional baryeri aşa bilmirlər. Ona görə də bizim mütləq şəkildə alternativ “donor hovuzu”na ehtiyacımız var. Bu “donor hovuzu” da beyin ölümü keçirən şəxslərdən, yəni meyitlərdən alınmış orqanlar olmalıdır”.

### Donora ehtiyacı olan xəstələrin bazası yaradılmalıdır

Musa Quliyevin fikrincə, donor bankının yaradılması vacib olan işlərdəndir. Onun yaradılması üçün ilk növbədə donora ehtiyacı olan xəstələrin mərkəzləşdirilmiş elektron bazası formalaşdırılmalıdır:

“Əvvəlcə müəyyən edilməlidir ki, kimlərin hansı orqanlara ehtiyacları var. Bundan sonra qan qrupu, immun sistemi və s. nəzərə alınmaqla xəstəyə uyğun donorlar tapıla bilər. Meyit orqanlarından donor bankının yaradılması isə o qədər də asan məsələ deyil və bu, çox zaman təcrübədə özünü doğrultmur. Çünki meyit orqanlarını çox saxlamaq olmur, orqan götürüləndən 5-6 saat ərzində onu xəstəyə köçürmək lazımdır”.

### Xəstələrin dövlətdən gözləntiləri

Mircəlal Kazımi bildirir ki, istər böyrək çatışmazlığı, istərsə qaraciyər xəstəliyindən əziyyət çəkənlər transplantasiya əməliyyatından sonra köçürülmüş orqanların rədd edilməməsi məqsədilə bir neçə qrup dərman preparatı qəbul etmək məcburiyyətindədir: “Bu dərmanların qəbulu mütləqdir. Əgər həmin dərmanlar qəbul edilməzsə, xəstənin köçürülmüş orqanı bədən tərəfindən rədd olunacaq və xəstə orqan çatışmazlığından dünyasını dəyişəcək”.

Transplantasiya olunmuş Rəhman Əhmədov isə deyir ki, əməliyyatdan sonra həkimin göstərişi ilə içməli olduğu dərmanların yalnız ikisi (“Prograf” kapsulu və “CellCept” həbi) dövlət tərəfindən pulsuz verilir, qalan dərmanları isə öz vəsaiti hesabına alır: “Əməliyyatdan sonra hər ay bir dəfə iynə vurdurmalıyam. İynənin qiyməti 200-250 manatdır. Biz xəstələr çox istərdik ki, heç olmasa, ehtiyacı olanlara əməliyyatdan sonra qəbul edilməsi vacib sayılan bütün dərmanlar dövlət hesabına verilsin, çünki bir çox xəstənin maddi imkanı hər ay bu dərmanları almaq üçün yetərli deyil”.

Rəhman danışır ki, “Prograf” kapsulu və “CellCept” həbləri onlara ayda bir dəfə yalnız Kliniki Tibbi Mərkəzdə verilir. Buna görə də hər ay yaşadığı Qazax rayonundan Bakıya gəlməli olur: “Yaxşı olardı ki, bu dərmanlar yalnız Bakıda verilməsin, onlar region mərkəzlərinə də göndərilsin. Məsələn, mən dərman almaq üçün Bakıya deyil, Gəncəyə gedim. Bu, bizim üçün daha rahat olar”.

Kənan Məmmədov isə donorun tapılmamasının, əməliyyatın baha olmasının onun üçün sıxıntılar yaratdığını açıqlayır. O, ümid edir ki, transplantasiya əməliyyatı icbari tibbi sığorta paketinə daxil edilərsə, maddiyyatla bağlı bu çətinlik də həll edilər.

Dövlətdən dəstək gözləyən Kənan əlavə edir ki, donor tapılana qədər mütəmadi müalicə olunmalıdır: “Ay ərzində yalnız sistemlərə 600-700 manat xərcim çıxır. Üç aydan bir isə həkimin müayinəsindən keçməli və kompleks müalicə olunmalıyam, həmin müddətdə xərclərim daha da çoxalır. Əvvəl polis orqanlarında işləmişəm, ancaq indi səhhətim imkan vermədiyindən çalışa bilmirəm, müalicəmin xərcini qohumlar ödəyirlər. Dövlətin transplantasiyaya ehtiyacı olan xəstələrin müalicəsinə də maddi dəstək göstərməsini çox arzu edərdik”.

### Transplantasiyanı tibbi sığorta zərfinə daxil etmək lazımdır

Musa Quliyev hesab edir ki, transplantasiya əməliyyatlarının qiyməti baha olduğundan əksər vətəndaşın onu etməyə maddi imkanı çatmır. Buna görə də dünyanın xeyli ölkəsində bu əməliyyatlar ya tam olaraq, ya da qismən dövlət büdcəsinin, yaxud icbari tibbi sığorta sisteminin vəsaiti hesabına edilir:

“Azərbaycanda orqan transplantasiyası hələlik icbari tibbi sığorta zərfinə daxil edilməyib. Amma hesab edirəm ki, gələn ildən başlayaraq o xidmətləri tədricən zərfə daxil etmək lazımdır. Çünki insanlarımızın buna zəruri ehtiyacı var”.

### 110 min manatlıq xərci 35 minə endirmək olar

Milli Məclisin Səhiyyə komitəsinin sədr müavini Rəşad Mahmudov böyrək çatışmazlığı olan xəstələrin dializ prosedurunun dövlətə transplantasiyadan daha baha başa gəldiyini düşünür.

Qeyd edək ki, dializ kəskin böyrək çatışmazlığı xəstəliyindən əziyyət çəkənlərin yaşaya bilməsi üçün həyata keçirilən məcburi prosedurdur. Belə xəstələr transplantasiya oluna bilmədikləri zaman yaşaya bilmələri üçün mütləq şəkildə həftə ərzində 3 dəfə dializ olunmalıdırlar.

Rəşad Mahmudov deyir ki, Azərbaycanda dövlət proqramı çərçivəsində bir dializ xəstəsinə il ərzində təqribən 11 min manat xərclənir: “Əgər bir xəstənin 10 il ərzində dövlət proqramı çərçivəsində dializ olunduğunu nəzərə alsaq, dövlət ona bu müddətdə təqribən 110 min manat sərf edir”.

Deputatın qənaətincə, bu qədər vəsaitin sərf edilməsi əvəzinə 15-18 min manata xəstənin böyrək transplantasiyasını etmək olar.

Onun fikrincə, bu işi həyata keçirmək üçün orqan çatışmazlığı problemi demək olar ki, yoxdur. Çünki ikili orqan olduğuna görə yaxın qohumlar böyrəklərindən birini rahatlıqla xəstəyə verə bilirlər: “Böyrək nəqli olmuş insanların istifadə etdikləri immunosupresiv dərmanların illik xərci təqribən 2 min manat civarındadır. Unutmamaq lazımdır ki, dializ olunan hər bir xəstə yanaşı xəstəlikləri, hepatit, ürək çatışmazlığı, damar yolu əskikliyi və s. problemləri ilə ailə və səhiyyə sistemi üçün yeni xərclər əmələ gətirir. Dializə məruz qalan insanların bu illər ərzində fiziki və psixoloji çətinlikləri ilə yanaşı, əlillik məsələsi, sosial təminatla bağlı sıxıntıları ortaya çıxır ki, bunlar da çəkilən xərclərə əlavə oluna bilər. Nəticədə özü, ailəsi, cəmiyyəti və dövləti üçün daha çox problem yaradan dializ xəstəsinin bütün bu problemlərdən uzaq, özünə və cəmiyyətə faydalı insan olma imkanı var. Onda sual yaranır ki, niyə görə biz dövlət büdcəsinin xərclərini iqtisadi və bir çox baxımdan daha səmərəli hesab edilən transplantasiyaya yönəltmirik. Yəni əməliyyat və dərman xərcləri də daxil olmaqla, böyrək transplantasiyası olunan şəxsin 10 illik xərci 38-40 min manat olduğu halda biz bunun əvəzinə daha çox problemlər yaradan, 10 illik xərci ortalama 100 min manatdan çox olan dializ yolunu seçirik”.

Millət vəkili bildirir ki, Prezident İlham Əliyevin yeni dövrün tələblərinə uyğun çağırışları, eləcə də ölkəmizdə səhiyyə sahəsində aparılan islahatlar bizi tibbin bütün sahələrində daha faydalı, iqtisadi cəhətdən daha səmərəli yollar tapmağa məcbur edir.

### Transplantasiya aparan müəssisələrin sayı artırılmalıdır

Azərbaycanda orqan transplantasiyası ilə yalnız adları Nazirlər Kabineti tərəfindən müəyyən edilmiş tibb müəssisələri məşğul ola bilərlər. Bu müəssisələrin edəcəyi transplantasiya sahələri də qanunvericiliklə tənzimlənir.

Ölkədə transplantasiya ilə M.M.Cavadzadə adına Respublika Klinik Uroloji Xəstəxanası (böyrək), Mərkəzi Gömrük Hospitalı (qaraciyər, mədəaltı vəzi və onun seqmentləri, böyrəklər, gözün buynuz qişası), Akademik Zərifə Əliyeva adına Elmi Tədqiqat Oftalmologiya Mərkəzi (gözün buynuz qişası), Mərkəzi Neftçilər Xəstəxanası (qaraciyər, böyrəklər, mədəaltı vəzi və onların seqmentləri, mədəaltı vəzi 12 barmaq bağırsaqla birlikdə, gözün buynuz qişası), “Mərkəzi Klinika” MMC (Böyrəklər, qaraciyər, ürək, ürək-ağciyər kompleksi, mədəaltı vəzi və seqmentləri, mədəaltı vəzi 12-barmaq bağırsaqla birlikdə, gözün buynuz qişası, sümük iliyi), Respublika Müalicəvi Diaqnostika Mərkəzi (ürək, ağciyər (ürək-ağciyər kompleksi), qaraciyər, böyrəklər, mədəaltı vəzi və seqmentləri, mədəaltı vəzi onikibarmaq bağırsaqla birlikdə, dalaq, gözün buynuz qişası, sümük iliyi), Respublika Talasemiya Mərkəzi (sümük iliyi), Azərbaycan Tibb Universitetinin Tədris-Cərrahiyyə Klinikası (qaraciyər, böyrəklər), “Gəncə Müalicə Diaqnostika Mərkəzi” MMC (böyrəklər, qaraciyər, ürək, ürək-ağciyər kompleksi, mədəaltı vəzi və seqmentləri, mədəaltı vəzi onikibarmaq bağırsaqla birlikdə, gözün buynuz qişası, sümük iliyi), “Dünya Göz Azərbaycan” MMC-nin (gözün buynuz qişası) məşğul olmasına icazə verilib.

Musa Quliyev isə hesab edir ki, Azərbaycanda orqan transplantasiyası həyata keçirən müəssisələrin sayının artırılmasına ehtiyac var. Orqan transplantasiyası ilə məşğul olmaq istəyən həkimlərə buna görə ayrıca lisenziyanın verilib-verilməməsi zərurətinə gəldikdə komitə sədrinin fikrincə, buna lüzum yoxdur.

O, belə bir təcrübənin dünyada geniş yayılmadığını da söyləyir: “Həkim müəyyən ixtisaslaşmadan, daha sonra sertifikatlaşdırmadan keçir və sertifikat alır. Sertifikatı olan istənilən həkim transplantasiya işini görə bilər. Ali məktəblərdə ayrıca “transplantoloq” deyilən ixtisas yoxdur. Bu işlə cərrahlar məşğul olurlar. Məsələn, istənilən göz cərrahı müvafiq təcrübədən keçəndən sonra buynuz qişanın transplantasiyasını apara bilər”.

### Orqanlarımızı bağışlaya bilərik

Hazırda ölkəmizdə donor bankı olmadığından donorları xəstələrin özləri və ya ailə üzvləri tapmalıdır, həm də kifayət qədər bahalı olan bu əməliyyat onların öz vəsaitləri hesabına edilməlidir. Hansısa xəstə bu məsələlərin öhdəsindən gələ bildiyi üçün həyatına davam edə bilsə də, başqa bir xəstə bunu bacarmır və sırf həmin problemlər üzündən dünyasını dəyişir.

Xəstələrin dövlətdən gözləntiləri onlara donor orqanının və ya toxumanın tapılması, əməliyyatların dövlət hesabına edilməsi, dərman təminatının həllinə yardımın göstərilməsi kimi məsələlərin həlli ilə bağlıdır. Ancaq bu xəstələrə təkcə dövlətin deyil, bizim də yardım etməyimiz mümkündür.

Adi vətəndaşın bunun üçün edə biləcəyi ən böyük kömək bir insanın həyatını xilas etmək naminə öz orqanlarını ölümündən sonra ehtiyac duyan xəstələrə bağışlamaq ola bilər. Əgər ölmüş bədən kiməsə can verə, onu yenidən həyata qaytara bilərsə, nədən bunu etməyək?!

***İlhamə İSABALAYEVA, “Azərbaycan”***

# İŞİMİZ, GÜZƏRANIMIZ




# Azərbaycanın və Türkiyənin birgə layihəsi

## 3 il əvvəl istifadəyə verilən TANAP Avropanın da enerji təhlükəsizliyinə xidmət edir

*Əvvəli 1-ci səh.*

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan TANAP-ın "Cənub qaz dəhlizi"nin "onurğa sütunu" olduğunu deyib. Qardaş ölkənin dövlət başçısı bu kəmərin işə düşməsini belə dəyərləndirib: "Biz TANAP ilə ölkəmizin enerji ehtiyacını təmin etməklə yanaşı, Avropanın enerji təhlükəsizliyinə də töhfə verməyi hədəflədik".

TANAP-ın səhmlərinin 51 faizi "Cənub qaz dəhlizi" QSC-yə, 7 faizi "SOCAR Turkey Enerji A.Ş."yə (STEAŞ), 30 faizi BOTAŞ-a, 12 faizi BP şirkətinə məxsusdur. O, möhkəm təmələ əsaslanan kəmərdir. Çünki görülən bu böyük işlərin başlanğıcında Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum qaz kəmərləri kimi möhtəşəm layihələrin təcrübəsi dayanır.

TANAP fəaliyyətini uğurla davam etdirir. Energetika Nazirliyinin məlumatına görə, bu ilin 5 ayında Türkiyəyə nəql olunmuş 4,1 milyard kubmetr qazın 2,2 milyard kubmetri məhz TANAP-ın payına düşüb. Keçən ilin sonundan bu kəmər həm də TAP-a mavi yanacaq ötürür. Cari ildə TAP-la Avropaya 2,3 milyard kubmetr qaz ixrac olunub.

Hazırda TANAP-ın mövcud ötürücülük qabiliyyəti 16 milyard kubmetrdir. 2023-cü ildə 23 milyard, 2026-cı ildə isə 31 milyard kubmetr mavi yanacağı daşımaq gücünə malik olacağı nəzərdə tutulur. Xatırladaq ki, ilkin mərhələdə TANAP kəməri ilə nəql ediləcək 16 milyard kubmetr Azərbaycan qazının 10 milyard kubmetri Avropaya, 6 milyard kubmetri isə Türkiyəyə çatdırılacaq.

Bu gün TANAP regionun, eləcə də Avropanın enerji təhlükəsizliyinə mühüm töhfə verir. Prezident İlham Əliyev bu barədə belə demişdir: "TANAP və "Cənub qaz dəhlizi", eyni zamanda, enerji təhlükəsizliyi layihəsidir. Bu gün dünya miqyasında enerji təhlükəsizliyi haqqında danışılır və bu məsələ dünyanın gündəliyini zəbt etmişdir. Hesab edirəm ki, burada çox gözəl əməkdaşlıq formatı yaradılıb. İstehsalçı ölkə Azərbaycan, tranzit ölkələri və istehlakçı ölkələr birlikdə çalışır. Bizim mənafeyimiz də birdir, gəlirimiz də ədalətli şəkildə bölünür. Bir daha demək istəyirəm ki, bütün bu layihələr bölgədəki sabitliyi möhkəmləndirir".

***Flora SADIQLI,* *"Azərbaycan"***

# ÜDM istehsalı artıb

2021-ci ilin yanvar-may aylarında ölkədə 31 milyard 532,5 milyon manatlıq və ya əvvəlki ilin eyni dövrü ilə müqayisədə 0,8 faiz çox ümumi daxili məhsul istehsal olunmuşdur.

Dövlət Statistika Komitəsinin yaydığı məlumata görə, iqtisadiyyatın neft-qaz sektorunda əlavə dəyər 6,7 faiz azalmış, qeyri neft-qaz sektorunda isə 4,5 faiz artmışdır.

ÜDM istehsalının 41,2 faizi sənaye, 10,4 faizi ticarət; nəqliyyat vasitələrinin təmiri, 7,5 faizi nəqliyyat və anbar təsərrüfatı, 5,3 faizi tikinti, 4,2 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 1,9 faizi informasiya və rabitə, 1 faizi turistlərin yerləşdirilməsi və ictimai iaşə sahələrinin, 18,8 faizi digər sahələrin payına düşmüş, məhsula və idxala xalis vergilər ÜDM-in 9,7 faizini təşkil etmişdir.

Əhalinin hər nəfərinə düşən ÜDM 3150,6 manata bərabər olmuşdur.

# İqtisadi sektorda 1,6 milyon nəfərdən çox adam çalışır

2021-ci il mayın 1-i vəziyyətinə ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin sayı ötən ilin eyni dövrü ilə müqayisədə 2,3 min nəfər və ya 0,1 faiz artaraq 1678,4 min nəfər olmuş, onlardan 913,6 min nəfəri iqtisadiyyatın dövlət sektorunda, 764,8 min nəfəri isə qeyri-dövlət sektorunda fəaliyyət göstərmişdir.



Muzdla işləyənlərin 19,7 faizi təhsil, 18,5 faizi ticarət; nəqliyyat vasitələrinin təmiri, 12,8 faizi sənaye, 8,3 faizi əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi, 7,2 faizi tikinti, 6,7 faizi dövlət idarəetməsi və müdafiə; sosial təminat, 4,5 faizi nəqliyyat və anbar təsərrüfatı, 3,4 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 3,4 faizi peşə, elmi və texniki fəaliyyət, 1,7 faizi maliyyə və sığorta fəaliyyəti, 13,8 faizi isə iqtisadiyyatın digər sahələrində məşğul olmuşlar.

2021-ci ilin yanvar-aprel aylarında ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin orta aylıq nominal əməkhaqqı əvvəlki ilin müvafiq dövrünə nisbətən 1,9 faiz azalaraq 722,3 manat olmuşdur. İqtisadiyyatın mədənçıxarma sənayesi, maliyyə və sığorta fəaliyyəti, peşə, elmi və texniki fəaliyyət, informasiya və rabitə, eləcə də nəqliyyat və anbar təsərrüfatı sahələrində orta aylıq nominal əməkhaqqı daha yüksək olmuşdur.

# Cəlilabadda daha 6 modul tipli məktəb inşa edilir

Cəlilabadda 2003-2021-ci illərdə 31 yeni məktəb inşa edilmiş, 4 məktəb əsaslı təmir olunmuş, 5 məktəbə korpus və sinif otaqları tikilib əlavə edilmişdir.



Son illər isə əhalisi nisbətən az olan kəndlərdə modul tipli məktəblərin tikintisinə başlanılmışdır. Yüngül konstruksiya ilə tikilən bu cür məktəblər həm asan başa gəlir və tez tikilir, həm də keyfiyyət göstəriciləri lazımi səviyyədə olur. Onları gərək olanda böyütmək və ya kiçiltmək də mümkündür. Son bir neçə ildə Cəlilabad rayonunda dövlət vəsaiti hesabına 24 belə məktəb tikilib istifadəyə verilmişdir.

2021-ci ildə isə daha 6 belə məktəbin tikintisi planlaşdırılmışdır. İnşaatçılar tikinti-quraşdırma işlərini sürətləndirərək həmin məktəb binalarını yeni tədris ilinəcən istifadəyə verməyi qarşılarına məqsəd qoymuşlar.

***Seyran CAVADOV,* *"Azərbaycan"***

# Daha bir şəhid ailəsinə mənzil verildi

Ölkəmizin ərazi bütövlüyü uğrunda döyüşlərdə şəhidlik zirvəsinə ucalmış Asəf Səfəralı oğlu Nəsibovun ailəsi sosial tərəfdaşın dəstəyi ilə mənzillə təmin olunub.

Abşeron rayonunda yeni yaşayış binalarından alınmış ikiotaqlı mənzilin sənədləri Sosial Xidmətlər Agentliyinin rəsmisi və sosial tərəfdaş olan iş adamı Müşviq Həsənovun iştirakı ilə şəhidin atası Səfəralı Nəsibova təqdim edilib.

Bildirilib ki, Prezident İlham Əliyevin tapşırıqlarına uyğun olaraq, bu il dövlət hesabına 3 minədək mənzil və fərdi ev verilməsi nəzərdə tutulub. Bu ilin planı üzrə artıq 500 mənzil sahiblərinə təqdim edilib.

Özəl sektorun nümayəndələri də sosial məsuliyyət, həmrəylik prinsipindən çıxış edərək şəhid ailələri və Qarabağ müharibəsi əlillərinin mənzillə təminatı proqramının genişlənməsinə öz töhfələrini verirlər. Şəhid Asəf Nəsibovun ailəsinə bu gün yeni mənzil təqdim edilməsi də bunun daha bir nümunəsidir.

# Yeni layihə - "Himayədar ailə"

Azərbaycanda valideyn himayəsindən məhrum olmuş uşaqların ailə mühitində yaşamasını nəzərdə tutan yeni "Himayədar ailə" qayğı modelinin tətbiqi nəzərdə tutulur.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən bu istiqamətdə müvafiq institusional hazırlıq, qanunvericilik bazasının yaradılması işlərinə başlanıb.

"Himayədar ailə" modeli deinstitutlaşmada yeni mərhələ olmaqla, valideyn himayəsindən məhrum uşaqların uşaq müəssisələrinə düşməsinin qarşısının alınması və onların ailə mühitində böyüməsinə şərait yaradılmasını, bununla bərabər, himayədar ailələrə dəstək verilməsi mexanizmini özündə ehtiva edir.

# Xarici ticarətdə 2,4 milyard dollardan çox müsbət saldo var

2021-ci ilin yanvar-aprel aylarında dünyanın 164 ölkəsindəki tərəfdaşları ilə ticarət əməliyyatları həyata keçirmişdir. 96 ölkəyə məhsul ixrac, 152 ölkədən idxal olunmuşdur.

Gömrük orqanlarında qeydiyyatı aparılmış, lakin gömrük rəsmiləşdirilməsi tam başa çatdırılmamış ixrac olunan xam neft və təbii qazın statistik qiymətləndirilmiş dəyəri nəzərə alınmaqla 2021-ci ilin yanvar-aprel aylarında ölkənin xarici ticarət dövriyyəsi 9532,1 milyon ABŞ dolları təşkil etmişdir. Ticarət dövriyyəsinin 6003,2 milyon dollarını və ya 63,0 faizini ölkədən ixrac olunmuş məhsulların, 3528,9 milyon dollarını (37,0 faizini) isə idxal məhsullarının dəyəri təşkil etmiş, nəticədə 2474,3 milyon dollar məbləğində müsbət saldo yaranmışdır. 2020-ci ilin yanvar-aprel ayları ilə müqayisədə xarici ticarət dövriyyəsi faktiki qiymətlərlə 16,5 faiz artmış, real ifadədə isə 12,4 faiz, o cümlədən idxal 18,1 faiz, ixrac 8,3 faiz azalmışdır.

2021-ci ilin yanvar-aprel aylarında qeyri neft-qaz məhsullarının ixracı əvvəlki ilin eyni dövrü ilə müqayisədə faktiki qiymətlərlə 27,0 faiz, real ifadədə 10,7 faiz artaraq 697,0 milyon dollar təşkil etmişdir.

Dövlət Gömrük Komitəsinin məlumatlarına əsasən, ixracın 37,5 faizini İtaliyaya, 16,6 faizini Türkiyəyə, 5,5 faizini Hindistana, 5,3 faizini İspaniyaya, 4,9 faizini Gürcüstana, 3,1 faizini Rusiyaya, 3,0 faizini Portuqaliyaya, hər biri 2,8 faiz olmaqla Ukrayna və Xorvatiyaya, 2,7 faizini İsrailə, 2,5 faizini Tunisə, hər biri 1,9 faiz olmaqla Belarus və Çinə, 1,4 faizini Birləşmiş Krallığa, 1,1 faizini İsveçrəyə, 7,0 faizini isə digər ölkələrə göndərilmiş məhsulların dəyəri təşkil etmişdir. Qeyri neft-qaz məhsulları üzrə ixracın dəyərində Türkiyəyə (31,0 faiz), Rusiyaya (27,0 faiz), İsveçrəyə (9,8 faiz), Gürcüstana (7,7 faiz), ABŞ-a (3,3 faiz), Çinə (2,2 faiz), Türkmənistana (1,8 faiz), Ukraynaya (1,6 faiz), Belçikaya (1,3 faiz), Qazaxıstana (1,2 faiz), Almaniyaya (1,1 faiz), İrana (1,0 faiz), İtaliyaya (1,0 faiz) göndərilmiş malların payı üstünlük təşkil etmişdir.

Ölkəyə idxal olunmuş məhsulların ümumi dəyərinin 18,2 faizi Rusiya, 15,2 faizi Türkiyə, 12,3 faizi Çin, 6,9 faizi Almaniya, 4,3 faizi ABŞ, 4,0 faizi Ukrayna, 3,6 faizi İran, 3,5 faizi İtaliya, 2,7 faizi Birləşmiş Krallıq, hər biri 2,0 faiz olmaqla Koreya və Yaponiya, 1,7 faizi Fransa, 1,6 faizi Braziliya, 1,5 faizi Hindistan, hər biri 1,2 faiz olmaqla Belarus və Polşa, 18,1 faizi isə digər ölkələr ilə aparılmış idxal əməliyyatlarının payına düşmüşdür.

# İstehsal sahələrinə daha çox sərmayə yönəldilir

**2021-ci ilin yanvar-may aylarında əsas kapitala 4907,0 milyon manat məbləğində, yaxud 2020-ci ilin müvafiq dövrü ilə müqayisədə 5,3 faiz az vəsait yönəldilmişdir. Neft-qaz sektoruna yatırılmış investisiyaların həcmi 2,1 faiz, qeyri neft-qaz sektoruna yönəldilən vəsaitin həcmi 7,9 faiz azalmışdır.**

İstifadə olunmuş vəsaitin 3392,2 milyon manatı və ya 69,1 faizi məhsul istehsalı sahələrinə, 1143,2 milyon manatı (23,3 faizi) xidmət sahələrinə, 371,6 milyon manatı (7,6 faizi) isə yaşayış evlərinin tikintisinə sərf olunmuşdur. Əsas kapitala yönəldilmiş vəsaitlərin 2960,8 milyon manatını və ya 60,3 faizini daxili vəsaitlər təşkil etmişdir. Əsas kapitala yönəldilmiş vəsaitlərin 3287,1 milyon manatı və ya 67,0 faizi bilavasitə tikinti-quraşdırma işlərinin yerinə yetirilməsinə sərf olunmuşdur.

Əsas kapitala yönəldilmiş vəsaitin ümumi dəyərində müəssisə və təşkilatların vəsaitləri 61,5 faiz, büdcə vəsaitləri 18,1 faiz, bank kreditləri 6,0 faiz, əhalinin şəxsi vəsaitləri 6,9 faiz, sair vəsaitlər isə 7,5 faiz təşkil etmişdir.

# Azərbaycan daha işıqlı olur

**Dünyanı işığa qovuşduran elektrik stansiyalarının Azərbaycana aid olan tarixi 124 ilə söykənir. Həmin tarix 1897-ci ildə Nobel qardaşlarının təşəbbüsü ilə Bakıda ilk elektrik stansiyasının əsasının qoyulması ilə başlanıb . Lakin istər bu, istərsə də sonrakı dövrdə Azərbaycan elə də işıqlı diyar olmayıb.**




Sovet İttifaqının tərkibində olarkən də respublikanın elektrik təchizatı daxili imkanlarla tam təmin edilə bilmirdi. "Nur şəhəri" adlanan Mingəçevirdə belə, həmin dövrdə işıqla təminatın vaxt sistemi ilə həyata keçirilməsi elektrik enerjisinin məhdudluğundan xəbər verirdi. Odur ki, Azərbaycanın bu gün özünün bu sahədəki tələbatını ödəməkdən savayı, bir sıra ölkələrə enerji ixrac etməsi böyük uğurdur. Amma bu da asan başa gəlməmişdir. Azərbaycan dövlət müstəqilliyinə qovuşduqdan sonra Ulu Öndər Heydər Əliyev tərəfindən enerji istehsalı sahəsində vacib addımlar atılmışdır. Prezident İlham Əliyev tərəfindən gerçəkləşdirilən layihələr isə ölkəmizi elektrik enerjisi ilə təminat sahəsində müstəqil etmişdir. Nəticədə Azərbaycan öz elektrik təminatını tamamilə ödəyə bilən azsaylı ölkələr sırasında qərarlaşmışdır.

Hazırda Azərbaycan qonşu ölkələr olan İran, Rusiya, Türkiyə, Gürcüstana da elektrik enerjisi ixrac edir. Məsələn, bu ilin yanvar-aprel ayları ərzində ölkədə ümumi enerji istehsalının həcmi ötən illə müqayisədə artaraq 8947,8 milyon kilovat-saata çatıb. Elektrik enerjisinin ixracı 554,5 milyon kilovat-saat olduğu halda, idxal bundan qat-qat az - 47,2 milyon kilovat-saat təşkil edib. İrana 10,8 milyon, Türkiyəyə 12,7 milyon, Rusiyaya 31,2 milyon, Gürcüstana isə 499,8 milyon kilovat-saat elektrik enerjisi ixrac olunub. İdxal prosesi isə İran, Rusiya, Gürcüstan ölkələri ilə aparılıb.

Azərbaycan İES bu gün Cənubi Qafqazın ən böyük istilik elektrik stansiyasıdır. 1981-ci ildən bir blokla fəaliyyətə başlayan stansiya hazırda ümumi gücü 2400 meqavat olan 8 blokdan ibarətdir. Azərbaycan İES respublikanın işıq təminatında ən önəmli yeri tutur.

Yeni istismara verilən istilik elektrik stansiyalarından biri - "Şimal-2" ES 2019-cu ildən "Şimal-1" elektrik stansiyasının gücünü artıraraq 800 meqavata qədər yüksəltdi. Yüksək iş mexanizminə malik bu istilik elektrik stansiyaları hazırda ölkə üzrə işıq istehsalının 20, Bakı və Abşeron üzrə isə 40-50 faizini verir.

Su elektrik stansiyaları içərisində böyükmiqyaslı enerji təminatını öz üzərinə götürən Mingəçevir və Şəmkir SES-lərin də günümüzdəki əhəmiyyəti inkaredilməzdir. 1955-ci ildə istismara verilən Mingəçevir SES-də yenidənqurma işləri 2018-ci ildə tamamlanmış, stansiyanın bütün hidrogeneratorları və hidroturbinləri yeniləri ilə əvəzlənmişdir. Ümumi gücü 380 meqavat Şəmkir SES isə 1983-cü ildən Azərbaycanın enerji təminatında iştirak edir.

İndi qarşıda duran ən mühüm məsələlərdən biri bərpa olunan enerji mənbələrindən istifadəyə üstünlük verməkdir. Odur ki, bu istiqamətdə ardıcıl addımlar atılır. İlk növbədə Günəş və külək elektrik stansiyalarının fəaliyyətini artırıb təkmilləşdirmək üçün tədbirlər görülür. Bu ilin may ayında Naxçıvanda yeni istifadəyə verilən Şərur GES muxtar respublikanın alternativ enerji ilə təminatına yeni töhfə verdi. Külək enerjisinin istehsalı istiqamətində isə yeni layihələr hazırlanmaqda davam edir. Prezident İlham Əliyevin 5 dekabr 2019-cu il tarixli sərəncamına əsasən, gücü 240 meqavat olan külək elektrik stansiyasının tikintisi ilə bağlı pilot layihənin icra edilməsinə cari ilin əvvəlindən başlanıb. Yeri gəlmişkən qeyd edək ki, yanvar-aprel ayları ərzində mövcud külək elektrik stansiyaları 31,12 milyon, Günəş elektrik stansiyaları 14,2 milyon kilovat-saat enerji istehsal edib.

Qarabağın isə, ümumiyyətlə, "yaşıl enerji" zonasına çevrilməsi qərara alınıb. İşğaldan əvvəl Qarabağ regionunun 10 rayonunda (Şuşa, Xocalı, Xocavənd, Laçın, Qubadlı, Cəbrayıl, Zəngilan, Füzuli, Kəlbəcər və Ağdam) 20 elektrik yarımstansiyası mövcud idi. Amma işğal nəticəsində viran qoyulan ərazilərimizdəki həmin infrastrukturdan əsər-əlamət qalmamışdı. Bu səbəbdən torpaqlarımızın işğaldan azad edilməsindən dərhal sonra həyata keçirilən bərpa-quruculuq işləri sırasında enerji təminatı ön plana çəkildi. Artıq Şuşa fasiləsiz elektrik enerji ilə təmin olunur. Laçının Güləbird kəndində isə su elektrik stansiyası istismara verilib. Bu, qısa zamanda - Laçının azad olunmasından sonra cəmi iki aya yaxın müddətdə işğaldan qurtarılan torpaqlarımızda fəaliyyətə başlayan ilk SES-dir.

Qarabağda bərpa-quruculuq işləri sürətlə davam edir. "Xudafərin" və "Qız qalası" su elektrik stansiyalarının tikilməsi, azad edilmiş ərazilərdə, o cümlədən Laçında, Kəlbəcərdə dağıdılan elektrik stansiyalarının bərpası yaxın zamanlarda həyata keçiriləcək planların bir hissəsidir. Şübhə yoxdur ki, Qarabağ bölgəsinin əlverişli təbii şəraitinin bu ərazilərdə alternativ və bərpaolunan enerji mənbələrindən istifadəyə imkan verməsi nəticəsində "yaşıl enerji" zonasının yaradılması zaman etibarı ilə elə də çox çəkməyəcək.

***Aydan XƏLİLOVA,* *"Azərbaycan"***

# Yanvar-may aylarında ölkə üzrə 18,8 milyard manatlıq sənaye məhsulları istehsal edilmişdir

**Sənaye müəssisələri və bu sahədə fəaliyyət göstərən fərdi sahibkarlar tərəfindən 2021-ci ilin yanvar-may aylarında 18,8 milyard manatlıq və ya 2020-ci ilin müvafiq dövrü ilə müqayisədə 2,2 faiz az sənaye məhsulu istehsal edilmişdir.**

Bu azalma neft-qaz sektorunda məhsul istehsalının 5,2 faiz azalması hesabına baş vermiş, sənayenin qeyri neft-qaz sektorunda isə məhsul istehsalı 16,2 faiz artmışdır.

Sənaye məhsulunun 62,5 faizi mədənçıxarma sektorunda, 31,2 faizi emal sektorunda, 5,5 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı sektorunda, 0,8 faizi isə su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorunda istehsal olunmuşdur.

Mədənçıxarma sektorunda əmtəəlik neft hasilatı 5,9 faiz azalmış, əmtəəlik qaz hasilatı isə 7,7 faiz artmışdır.

Emal sektorunda əczaçılıq məhsullarının istehsalı 4,4 dəfə, dəri və dəri məmulatlarının, ayaqqabıların istehsalı 2,9 dəfə, kompüter, elektron və optik məhsulların istehsalı 2,5 dəfə, maşın və avadanlıqların istehsalı 98,5 faiz, maşın və avadanlıqların quraşdırılması və təmiri işləri 96,3 faiz, tütün məmulatlarının istehsalı 86,3 faiz, elektrik avadanlıqlarının istehsalı 81,5 faiz, toxuculuq sənayesi məhsullarının istehsalı 43 faiz, kağız və karton istehsalı 41 faiz, tikinti materiallarının istehsalı 29,3 faiz, rezin və plastik kütlə məmulatlarının istehsalı 24,6 faiz, geyim istehsalı 20,5 faiz, qida məhsullarının istehsalı 7,7 faiz, ağacın emalı və ağacdan məmulatların istehsalı 5,3 faiz, neft məhsullarının istehsalı 3,0 faiz, metallurgiya sənayesi məhsullarının istehsalı 2,4 faiz artmış, hazır metal məmulatlarının istehsalı 4,7 faiz, içkilərin istehsalı 8,6 faiz, kimya sənayesi məhsullarının istehsalı 9,8 faiz, mebel istehsalı 28,9 faiz, avtomobil, qoşqu və yarımqoşquların istehsalı 47,7 faiz, poliqrafiya məhsullarının istehsalı 63,5 faiz, sair nəqliyyat vasitələrinin istehsalı 70,9 faiz azalmışdır.

Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı sektorunda istehsalın həcmi 0,1 faiz, su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorunda isə 7,6 faiz artmışdır.






# “Qardaş Türkiyə azarkeşlərini səbirsizliklə gözləyirik”



**“Əsl futbol bayramı yaşayacağıq. Avropa çempionatını səbirsizliklə gözləyirdik. Əslində, ötən il olmalı idi, amma pandemiya səbəbindən bir il təxirə salındı. Azərbaycan hökuməti Bakı Olimpiya Stadionuna arenanın ümumi tutumunun 50 faizinə qədər azarkeş buraxılmasına icazə verdi. Bu, sevindirici durumdur”.**

Bu sözləri AFFA-nın icraçı vitse-prezidenti Elxan Məmmədov “Anadolu” Agentliyinə açıqlamasında “Avro-2020”nin Bakıda keçiriləcək oyunları barədə danışarkən deyib.

E.Məmmədov azarkeşlərin ölkəmizdəki matçlara marağının böyük olduğunu vurğulayıb: “Türkiyə millisinin ilk görüşünə 20 min bilet satılıb. Hər oyun üçün 32 min bilet satışı nəzərdə tutulub. Son günlərdə satışın artacağını düşünürəm. Qardaş Türkiyə azarkeşlərini səbirsizliklə gözləyirik”.

O, Türkiyə millisinin Bakıdakı görüşlərdə üstün tərəf olacağını söyləyib: “Azərbaycanlı azarkeşlər Türkiyə millisini dəstəkləyəcək. Coğrafi baxımdan türkiyəli fanatların Bakıya gəlməsi daha rahatdır. Çünki iki ölkə arasında gündə 5 uçuş var. Bunun özü də böyük üstünlükdür. Uels və İsveçrədən uçanlar ya xüsusi, ya da tranzit reyslə gəlməlidir. Amma qardaş Türkiyə azarkeşləri 2,5 - 3 saatlıq uçuşla Bakıya çata biləcəklər”.



## Bakıda ilk matçın hakim təyinatları müəyyən olub

**“Avro-2020”nin qrup mərhələsi çərçivəsində bu gün Bakıda keçiriləcək ilk oyunun təyinatları müəyyənləşib.**

Belə ki, Uels və İsveçrə komandaları arasında baş tutacaq A qrupu görüşünü Fransa və Serbiyadan olan hakimlər briqadası idarə edəcək. Qarşılaşmanın baş hakimi fransalı Klemen Turpendir. Ona həmyerliləri Nikolas Danos və Kiril Qrinqor kömək edəcək. 4-cü və 5-ci hakimlər isə serbiyalılar olacaq.

## «Avro-2020»nin ümumi mükafat fondu



“Avro-2020”nin ümumi mükafat fondu 284,55 milyon funt sterlinqdir. 2018-ci ilin fevralında bu rəqəmin 319 milyon olacağı açıqlansa da, koronavirus pandemiyası səbəbindən UEFA və iştirakçı ölkələr mükafatın azaldılması barədə razılığa gəliblər. Yeni mükafat fonduna əsasən, Avropa çempionu maksimum - 24,29 milyon qazanacaq. Qrupda bütün matçlarda uduzan komanda isə 8 milyonla kifayətlənəcək.

### 24 komandanın hər biri iştirak üçün - 8 milyon

Qrupda hər oyunda qələbə - 860 min
Qrupda hər heç-heçə - 430 min
1/8 finalda iştirak - 1,29 milyon
1/4 finalda iştirak - 2,15 milyon
1/2 finalda iştirak - 3,44 milyon
Finalda məğlubiyyət - 4,03 milyon
Finalda qələbə - 6,88 milyon

## “Avro-2020”nin təqvimi

12 iyun

**A qrupu**

**17:00. Uels - İsveçrə**
**Bakı, Olimpiya stadionu**

**B qrupu**

**20:00 Danimarka - Finlandiya**
**Kopenhagen, Parken stadionu**
**23:00 Belçika - Rusiya**
**Sankt Peterburq, Yeni Zenit Arena**

## Ronaldo ardıcıl 2-ci çempionluğu hədəfləyir



**Portuqaliya millisinin futbolçusu Kriştiano Ronaldo “Avro-2020” öncəsi fikirlərini bildirib. O, turnirdə oynayacaqları bütün komandalara hörmət etdiklərini deyib:**

“Asan matç olmayacaq. Özümü Avropa çempionatında ilk dəfə çıxış edirmiş kimi hiss edirəm. 2004-cü ildə ilk dəfə oynadığım qədər, bəlkə də ondan da çox motivasiyalıyam”.

“Avro-2016”nın qalibi olan yığmanın hücumçusu bildirib ki, bu dəfə də turnirin favoritlərdəndirlər: “Biz keçmiş çempionuq və bir daha favoritlər arasındayıq. Titul vəd etməyin və ya proqnoz verməyin mənası yoxdur. Söz verə bilərəm ki, hər matçda qələbə qazanmağa çalışacağıq”.

## Ukrayna millisinin forması dəyişdirildi



**Ukrayna və Rusiya mənbələrinin verdiyi məlumata görə, UEFA “Avro-2020”də Ukrayna yığma komandasının formasından “Qəhrəmanlara eşq olsun” sözlərinin götürülməsini tələb edib.**

Eyni zamanda “Ukraynaya eşq olsun” sözləri futbolçuların geyimində qalacaq. Bundan əlavə, formadakı Krımla birlikdə Ukrayna xəritəsinə də icazə verilmişdir.

Bildirilir ki, UEFA Ukrayna millisinin formasını Rusiyadan daxil olmuş sorğudan sonra yoxlamışdır. Ruslar həm geyimdəki sözlərdən, həm də xəritədən son dərəcə narazıdırlar. Beləliklə, Rusiya qismən öz məqsədinə nail olmuşdur.

Bundan əvvəl Ukrayna Futbol Assosiasiyasının prezidenti Andrey Pavelko bildirmişdir ki, forma təqdimat mərsimindən xeyli əvvəl UEFA ilə razılaşdırılmışdır və bu səbəbdən heç bir problem olmamalı idi.

## UEFA xəbərdarlıq edir

**UEFA “Avro-2020”dəki matçların əvvəlində “Black Lives Matter” hərəkatına dəstək aksiyaları keçirəcək yığmalar haqqında məlumat yaymışdır.**

“Daily Mail” qəzeti UEFA nümayəndəsinin bununla bağlı səsləndirdiyi bəyanatı çap etmişdir. Bəyanatda deyilir: “UEFA irqçiliyi qəbul etmir və diz çökmək vasitəsilə insanlar arasında bərabərliyi tələb etmək istəyənlər bunu edə bilərlər. Biz diz çökəcək komandalara və oyunçulara azarkeşlər tərəfindən hörmət olunmasına çağırırıq”.

Xatırladaq ki, bundan əvvəl “Black Lives Matter” hərəkatına dəstək aksiyası zamanı İngiltərə yığmasının futbolçuları bəzi azarkeşlər tərəfindən fitə basılmışdır.




## Belçikada De Brüyne şoku



**Belçika millisinin futbolçusu Kevin De Brüyne “Avro-2020”nin qrup mərhələsinin ilk turunda Rusiya ilə oyunu buraxacaq.**

**Bu barədə “Mançester Siti”nin oyunçusunun özü məlumat verib: “Ümid edirəm ikinci matçda oynayacağam. Hələ bir az ağrıyıram. Bəzən günəş eynəyi taxmalısan, amma bu həmişə mümkün deyil”.**

**Qeyd edək ki, De Brüyne burun və orbit zədəsindən sağalır.**

## Fransa millisində narazılıq

**Fransa millisinin hücumçuları Kilian Mbappe ilə Olivye Jiru arasında mübahisəli vəziyyət yaranıb. “Qol.az” xəbər verir ki, bu problem hələ də həllini tapmayıb. Hadisənin baş verməsinə Jirunun mediaya dediyi sözlər səbəb olub.**

Qeyd edib ki, ona çox ötürmə vermirlər, bu olsa, komanda hücumda daha yaxşı təsir bağışlayar. Bildirilir ki, Mbappe Jirunun bu sözlərini öz üzərinə götürüb. Ona görə də o, bütün gün ərzində narazı halda gəzib, komanda yoldaşının üzünə baxmayıb. Jiru vəziyyəti Mbappe ilə aydınlaşdırmaq istəyib. Bildirib ki, fikrini düzgün ifadə edə bilməyib və buna jurnalistin təxribatçı sualı səbəb olub.

O, qeyd edib ki, əslində, Mbappeni yox, Benjamen Pavarla Nqolo Kanteni nəzərdə tutur. Bununla da Jiru səhvə yol verdiyini etiraf edib. Buna baxmayaraq, Mbappe narazılığını davam etdirib.

Baş məşqçi Didye Deşam bununla əlaqədar həm hər iki oyunçu, həm də bütün komanda ilə söhbət edib. O deyib ki, bu söhbərlərə baxmayaraq, irəli getmək, oyunları fikirləşmək lazımdır. Amma həm bu, həm də məşqdə Jirunun Mbappeni qucaqlaması da lazımi nəticə verməyib.



## Ermənistan silahlı qüvvələri Kəlbəcər istiqamətində mövqelərimizi atəşə tutub

İyunun 11-də saat 13.45-dən başlayaraq Vardenis rayonunun Yuxarı Şorca yaşayış məntəqəsi ərazisindəki Ermənistan silahlı qüvvələrinin mövqelərindən Kəlbəcər rayonu istiqamətində yerləşən Azərbaycan Ordusunun mövqeləri atıcı silahlardan mütəmadi atəşə tutulub.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Azərbaycan Ordusunun şəxsi heyəti arasında həlak olan və yaralanan yoxdur.

Hazırda bu istiqamətdə vəziyyət sabitdir, əməliyyat şəraiti bölmələrimizin nəzarəti altındadır.

## FHN “Avro-2020”nin Bakıda keçiriləcək oyunları ilə əlaqədar gücləndirilmiş iş rejiminə keçib

UEFA Avropa çempionatının qrup mərhələsinin üç və dörddəbir final mərhələsinin bir oyununun Bakıda keçirilməsi ilə əlaqədar Fövqəladə Hallar Nazirliyi (FHN) gücləndirilmiş iş rejiminə keçib.

FHN-in Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, fövqəladə hallar naziri general-polkovnik Kəmaləddin Heydərov bununla bağlı müvafiq əmr imzalayıb.

Əmrə əsasən, nazirlikdə qərargah yaradılıb. Həmçinin oyunlarla bağlı bir sıra yerlərdə, o cümlədən Bakı Olimpiya Stadionu, “Dalğa Arena”, “Bakcell Arena”, Tofiq Bəhramov adına Respublika Stadionu və qonaqların qalacağı hotellərdə aidiyyəti təhlükəsizlik tədbirlərinə nəzarət məqsədilə FHN-in aidiyyəti qurumlarına müvafiq tapşırıqlar verilib, təhlükəsizlik müayinələri keçirilib, maariflənmə işləri aparılıb.

Bundan əlavə, baş verə biləcək fövqəladə hadisələrə çevik reaksiya verilməsi, onların mümkün nəticələrinin operativ şəkildə aradan qaldırılmasının təmin edilməsi məqsədilə nazirliyin aidiyyəti struktur bölmə və qurumlarına müvafiq tapşırıqlar verilib.

## Azərbaycanı Tokio Olimpiadasında təmsil edəcək idmançıların vaksinasiyasına başlanıb

Azərbaycanı “Tokio-2020” Yay Olimpiya Oyunlarında təmsil edəcək idmançıların və heyət üzvlərinin COVID-19 infeksiyasına qarşı peyvəndləmə prosesinə başlanıb.

Azərbaycan Milli Olimpiya Komitəsinin (MOK) Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, ilk peyvənd komitənin vitse-prezidenti Çingiz Hüseynzadəyə vurulub.

Vaksinasiya prosesinə koronavirus xəstəliyinə yoluxmayan bütün idmançılar, Olimpiya heyətinin üzvləri cəlb olunublar.

MOK-un vitse-prezidenti Ç.Hüseynzadə bildirib ki, vaksin vurulmasına əks göstərişi olmayan, Azərbaycanın Tokio Olimpiya Oyunları komandasının bütün üzvləri peyvəndləməyə cəlb olunacaqlar. Hazırda təlim-məşq toplanışında olan Olimpiya komandasının üzvləri də mərhələli şəkildə “Tokio-2020”dək peyvənd ediləcəklər. İştirakçı ölkələrdə başlayan peyvəndlənmə prosesi Tokio Yay Olimpiya Oyunlarının sağlamlıq üçün təhlükəsiz şəraitdə keçməsinə zəmin yaradacaq.

Beynəlxalq Olimpiya Komitəsinin prezidenti Tomas Bax son çıxışında bildirib ki, Atletlər kəndində məskunlaşacaq, Tokio Olimpiya və Paralimpiya oyunlarında iştirak edəcək idmançıların və komanda üzvlərinin 80 faizi oyunlar başlayana qədər vaksinasiya olunacaq.

Tokioda 2020-ci ilin yayında keçirilməli olan Yay Olimpiya və Paralimpiya oyunları koronavirus pandemiyası ilə əlaqədar cari ilə keçirilib. Nəticədə Tokioda Olimpiya Oyunlarının iyulun 23-dən avqustun 8-dək, Paralimpiya Oyunlarının isə avqustun 24-dən sentyabrın 5-dək keçirilməsi planlaşdırılıb.

## Dövlət ittihamçısı orduya dəstək aksiyası zamanı yaranmış insidentlə bağlı təqsirləndirilənlərə şərti cəza verilməsini xahiş edib

Azərbaycan Ordusuna dəstək üçün 2020-ci il iyulun 14-də keçirilən aksiya zamanı yaranmış insident faktı üzrə istintaq olunan cinayət işi üzrə həm əvvəl, həm də bu gün keçirilmiş məhkəmə iclası zamanı dövlət ittihamçısı tərəfindən təqsirləndirilən şəxslərə azadlıqdan məhrumetmə növündə cəzanın şərti tətbiq olunması xahiş edilib.

Bu barədə AZƏRTAC-a Baş Prokurorluğun Mətbuat xidmətindən məlumat verilib.



## Mərdəkan qəsəbəsində əl qumbarası aşkarlanıb

Fövqəladə Hallar Nazirliyinin 112 - Qaynar telefon xəttinə Xəzər rayonunun Mərdəkan qəsəbəsində sursat aşkar edilməsi barədə məlumat daxil olub.

FHN-in Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, məlumatla əlaqədar nazirliyin Xüsusi Riskli Xilasetmə Xidmətinin (XRXX) müvafiq qüvvələri dərhal hadisə yerinə cəlb olunub. Əraziyə baxış keçirilərkən döyüş tətbiqinə yararlı “F-1” əl qumbarası aşkar edilib.

Həmin qumbara zərərsizləşdirilməsi üçün XRXX-nin pirotexnikləri tərəfindən götürülüb.

# Beynəlxalq aləm

## Makrona əl qaldıran 4 ay iş aldı



Fransa lideri Emmanuel Makrona sillə vuran D.Tarel məhkəmənin qərarı ilə 4 ay müddətinə həbs cəzasına məhkum edilib. Bu barədə yerli KİV-lər xəbər verir.

BFM telekanalının məlumatına görə, məhkəmə Valansda keçirilmişdir.

Xatırladaq ki, dövlət başçısı Drom departamentinə səfəri zamanı 28 yaşlı Damyen Tarel ona hücum etmişdir. Hadisəni videoya çəkən ikinci fransız da saxlanmışdır.

## ABŞ İrana qarşı bəzi sanksiyaları ləğv etdi

ABŞ tərəfindən İranın 3 rəsmi şəxsinə və neft sahəsində fəaliyyət göstərən 2 şirkətinə qarşı tətbiq olunan sanksiyalar aradan qaldırılıb. Bu barədə ABŞ-ın Maliyyə Nazirliyi məlumat yayıb. Bu şəxslər və şirkətlər İran İslam İnqilabı Keşikçiləri Korpusu (SEPAH) ilə əlaqədə ittiham edilirdilər. Lakin sonradan müəyyən olunub ki, həm rəsmi şəxslər, həm də şirkətlər sanksiyalara görə davranışlarını dəyişiblər və SEPAH ilə əlaqələrini kəsiblər.

ABŞ-ın dövlət katibi Entoni Blinken bildirib ki, bəzi sanksiyaların ləğvi rəsmi Vaşinqtonun nüvə razılaşmasına qayıtmaq iradəsini göstərir.

## Pedro Kastilyo Perunun Prezidenti seçildi



“Azad Peru” radikal solçu partiyasının nümayəndəsi Pedro Kastilyo ölkədə keçirilən prezident seçkilərində qalib gəlib. Bu barədə TASS Agentliyi xəbər verir.

Məlumata görə, Kastilyoya 8800081 seçici (50,198 %) səs verib. Onun rəqibi, sağçı “Xalq gücü” Partiyasından namizəd Keyko Fuximori 8730535 seçicinin (49,802 %) səsini qazanıb. Ölkənin 6,3 milyondan çox seçicisi, yaxud səsvermə hüququ olan vətəndaşların 25 %-dən çoxu seçki məntəqələrinə gəlməyiblər.

Səlahiyyət müddəti beş il olan yeni seçilmiş prezident iyulun 28-də vəzifəsinin icrasına başlayacaq.

## Yaponiyada referendum keçiriləcək

Yaponiya parlamentinin yuxarı palatası üç il davam edən müzakirələrdən sonra yenidən baxılan milli referendum haqqında qanunu qəbul edib. TASS Agentliyinin xəbərinə görə, əlavə dəyişikliklərin təklif edildiyi qanun hakim Liberal Demokratik Partiyası (LDP), onun koalisiya tərəfdaşı Komey-to Partiyası və əsas müxalifət partiyası - KDP-dan olan deputatların səs çoxluğu ilə qəbul edilib. Xatırladaq ki, qanun layihəsi parlamentin aşağı palatası tərəfindən ötən ay təsdiqlənib.

Qəbul edilən yeni qanuna əsasən, konstitusiyaya dəyişikliklər məqsədilə təşkil ediləcək referendum zamanı vağzallarda və ticarət mərkəzlərində seçki məntəqələrinin təşkilinə icazə veriləcək. Həmçinin bildirilir ki, yeni qanuna görə, balıqçılıq üzrə məktəblərin tələbələri gəmilərlə uzaq səfərlər zamanı səsvermə imkanına malik olacaqlar.

# "Azərsu" ASC daxili vəsaiti hesabına elektron satınalma vasitəsilə xüsusi çəkmələrin satın alınması üzrə

## *açıq tender elan edir*

Malgöndərənlər (podratçılar) **https://www.etender.gov.az/** - dövlət satınalmalarının vahid internet Portalından tender haqqında ətraflı məlumatı əldə edə bilərlər.

Təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: ***Çatdırılma müddəti, istehsalçı firmanın etibarnaməsi və ən aşağı qiymət təklifi.***

Malgöndərənlər (podratçılar) qeyd olunan məbləğdə iştirak haqqını aşağıda göstərilən hesaba köçürdükdən sonra Əsas şərtlər toplusunu dövlət satınalmalarının vahid internet Portalından əldə edə bilərlər.

**Tenderdə iştirak haqqı 300 manatdır.**

**Təşkilat: "Azərsu" ASC**
**VÖEN: 9900001751**
**Bank: "Kapital Bank"ASC-nin 1 saylı Nəsimi filialı**
**Kod: 200112**
**VÖEN: 9900003611**
**M/h: AZ37NABZ 01350100000000001944**
**S.W. I. F. T. BIK: AIIBAZ2X**
**H/h: AZ65AIIB 33070019441100216111**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Malgöndərənlər (podratçılar) tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak haqqını təsdiq edən sənəd;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra azı 60 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (Təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərinin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergiödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi halları mövcud olmamalıdır (müvafiq icra hakimiyyəti orqanının arayışı);*
- *malgöndərənlərin (podratçıların) son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *malgöndərənin (podratçının) son bir ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyəti dövründəki) maliyyə vəziyyəti barədə bank tərəfindən verilmiş arayışı;*
- *malgöndərənin (podratçının) tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları;*
- *malgöndərənin (podratçının) ixtisasına dair tələblər ("Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununun 6.2-ci maddəsində tələb olunan sənədlər);*
- *malgöndərənin (podratçının) mikro, kiçik, orta və iri sahibkarlıq subyektlərinə aid olmasını təsdiq edən sənəd.*

Malgöndərənlər (podratçılar) tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **07 iyul 2021-ci il saat 18:00-a** qədər, tender təklifi və bank təminatını isə **15 iyul 2021-ci il saat 18:00-a** qədər dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə təqdim etməlidirlər.

Elektron satınalmanın açılışı **16 iyul 2021-ci il saat 18:00-da** dövlət satınalmalarının vahid internet Portalında keçiriləcək.

***Tender komissiyası***

# Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin Protez-Ortopedik İstehsalat və Reabilitasiya Mərkəzi 2021-ci il üçün stendlərin və lövhələrin hazırlanması xidmətinin satın alınması ilə əlaqədar

## *kotirovkaya dəvət edir*

Kotirovka proseduru 17 iyun 2021-ci il saat 11:00-da Protez-Ortopedik İstehsalat və Reabilitasiya Mərkəzində keçiriləcəkdir. Ünvan: S.Ə.Şirvani küçəsi 3.

Kotirovkada iştirak etmək üçün aşağıdakı sənədlər təqdim edilməlidir:

1. *Azərbaycan Respublikasında və iddiaçıların öz öhdəliklərində vergilərə və digər icbari ödənişlərə dair təmin edilməmiş öhdəliklərin olmaması haqqında arayış.*
2. *İddaçının hüquqi statusunu təsdiq edən sənədlər (notarius tərəfindən təsdiq olunmuş).*
3. *Kotirovka üçün qiymət təklifləri.*
4. *Qeyd olunan sənədlərin 16 iyun 2021-ci il saat 17:00-a kimi Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin Protez-Ortopedik İstehsalat və Reabilitasiya Mərkəzində yaradılmış Tender komissiyasına təqdim olunması təmin edilməlidir.*

İddiaçının hazırladığı kotirovka təklifi zərfə qoyulmalı və bağlı tərəfi iddiaçı tərəfindən imzalanıb möhürlənməlidir.

Kotirovka təklifləri açıldığı gündən sonrakı 30 bank günü ərzində qüvvədə olmalıdır.

Kotirovka təkliflərinin qəbulu və əlavə məlumat almaq üçün Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Xidmətinin Protez-Ortopedik Bərpa Mərkəzində yaradılmış Tender komissiyasının sədrinə və yaxud əlaqələndiriciyə müraciət edilə bilər.

Tel.: mob.: (+99477) 489-90-15: **email: po.irm@sosial.gov.az**

Təsərrüfat mallarının satın alınmasının həyata keçirilməsi bu dəvətnaməyə əlavə edilən əsas şərtlər toplusuna əsasən aparılmalıdır.

Kotirovkada qələbə üçün əsas şərt **Stendlərin və lövhələrin hazırlanması xidmətinin** satınalınması qiyməti, keyfiyyəti və təhvil verilmə müddəti, təşkilatın aidiyyəti işlərdə təcrübəsi, istehsalçı olması, ixtisaslı kadrların mövcudluğu və professionallığı, maliyyə imkanları hesab olunur.

***Tender komissiyası***

# BİLDİRİŞ

Dövlət satınalmalarının vahid internet Portalında yaranmış texniki problemlə əlaqədar olaraq, Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Maddi-Texniki Təchizat İdarəsi tərəfindən yanğınsöndürmə üçün xüsusi köpük əmələ gətirən mayenin satın alınmasına dair 10 iyun 2021-ci il tarixdə keçirilməsi nəzərdə tutulan tender zərflərinin açılış tarixi 17 iyun 2021-ci il tarixə dəyişdirilmişdir. Müvafiq olaraq tender təklifləri ilə bağlı zərflərin qəbulu 16 iyun 2021-ci il saat 17:00-a təyin edilir.

***Tender komissiyası***

# BİLDİRİŞ

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi 2 saylı Bakı DOST Mərkəzi inzibati binanın isitmə, soyutma və havalandırma sistemlərinə göstəriləcək periodik texniki servis xidmətlərinin kotirovka sorğusu üsulu ilə satın alınması məqsədilə elan edilən kotirovka sorğusunda iştirak edən iddiaçıların təklifləri qiymətləndirilmişdir. Tender komissiyasının 30 mart 2021-ci il qərarına əsasən, "Kriptonit İnşaat" MMC qalib elan edilmişdir.

Qalib təşkilatla müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

# BİLDİRİŞ

Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Maddi-Texniki Təchizat İdarəsi tərəfindən elektrik generatoru, elektrik avadanlıqları və digər elektrik alətlərinin təmiri işlərinin satın alınması üzrə keçirilmiş açıq tender prosedurunda iştirak edən iddiaçıların təklifləri qiymətləndirilmişdir. Açıq tenderin nəticələri haqqında Tender komissiyasının 18 may 2021-ci il tarixli protokoluna əsasən, "TNT Engineering" MMC qalib elan edilmiş və həmin təşkilatla 02 iyun 2021-ci il tarixdə müvafiq satınalma müqaviləsi bağlanmışdır.

***Tender komissiyası***

# BİLDİRİŞ

"Azərbaycan" qəzetinin 07 may 2021-ci il tarixli nömrəsində dərc edilmiş və həmin tarixdə dövlət satınalmalarının vahid internet Portalında (https://www.etender.gov.az) Azərbaycan Respublikasının Dövlət Neft Fondu tərəfindən keçirilən elektron satınalmada (etender) Ümumi təhlükəsizlik sistemləri üçün yeni proqram təminatlarının və lisenziyalarının satın alınması (İCPAM, skan proqramı və s.) üçün qeydiyyatdan keçmiş iddiaçıların sayı səmərəli rəqabəti təmin etmək üçün 3 (üç) iştirakçıdan az olduğundan "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununun 50-4.2-ci maddəsinə əsasən, bu LOT üzrə etender proseduru ləğv edilmişdir.

***Tender komissiyası***

# BİLDİRİŞ

Azərbaycan İnvestisiya Holdinqi üçün maliyyə, mühasibat, kadr və əmək haqqı uçotunun aparılması, planlama, satınalma və təchizatın idarə olunması, vergi, DSMF, statistik, büdcə və idarəetmə hesabatlarının hazırlanmasını təmin edən proqram təminatının satın alınması ilə bağlı "Azərbaycan" qəzetinin 11 iyun 2021-ci il tarixli nömrəsində dərc edilmiş açıq tender elanının "Tender predmeti üzrə proqram təminatı (bir adda, bir ədəd) satınalma müqaviləsi imzalandığı tarixdən etibarən 1 (bir) gün müddətində Bakı şəhəri, Səbail rayonu, Azərbaycan prospekti, 6 ünvanına təqdim olunmalıdır." hissəsi "Tender predmeti üzrə proqram təminatı (bir adda, bir ədəd) satınalma müqaviləsi imzalandığı tarixdən etibarən hazırlanıb 15 gün müddətinə Bakı şəhəri, Səbail rayonu, Azərbaycan prospekti, 6 ünvanına təqdim olunmalı, həmçinin proqramın serverə və istifadəçilərin kompüterlərinə yazılması, sazlanması və ilkin məlumatların daxil edilməsi üçün tam hazır vəziyyətə gətirilməsi müddəti 90 gün təşkil etməlidir." kimi oxunmalıdır.

***Tender komissiyası***

# BİLDİRİŞ

"Azərbaycan" qəzetinin 05 may 2021-ci il tarixli nömrəsində və dövlət satınalmalarının vahid internet Portalında (https://www.etender.gov.az) Azərbaycan Respublikasının Dövlət Neft Fondu tərəfindən illik hesabatın tərtibatı və çap işlərinin satın alınması üzrə dərc edilmiş elan əsasında keçirilən təkliflər sorğusunda "Yelload" MMC qalib olmuşdur.

Qalib şirkətlə 10 iyun 2021-ci ildə müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

# ELAN

Bakı Kommersiya Məhkəməsinin qanuni qüvvəyə minmiş 16.06.2020-ci il tarixli İş № e-2-2(113)-1455/2020 nömrəli Qətnaməsi ilə borclu "Lider TV və Radio-Azərbaycan" Məhdud Məsuliyyəli Cəmiyyəti müflis elan edilmiş və Abbasov Mikayıl Hümmət oğlu əmlak inzibatçısı təyin edilmişdir.

Bütün suallarla bağlı əmlak inzibatçısı Abbasov Mikayıl Hümmət oğluna aşağıdakı telefonlar vasitəsilə və ya ünvana müraciət etmək olar:

Tel.: (+99412) 497-61-58, 497-88-99.

AZ1141, Bakı şəhəri, Yasamal rayonu, Şəfayət Mehdiyev, ev 83/23.

# Xızı Rayon İcra Hakimiyyəti Başçısının Xızı Şəhər İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyi 2021-ci il üçün

## *açıq tender elan edir*

Tender 1 (bir) LOT üzrə keçirilir.

**LOT-1** Xızı şəhərində avtomobil yollarının əsaslı təmiri

Tender iştirakçılarına təklif olunur ki, **www.etender.gov.az** dövlət satınalmalarının vahid internet Portalına daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyən təşkilatlar LOT üzrə müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

**İştirak haqqı 300 manat**

**Tenderdə iştirak haqqının ödənilməsi üçün satınalan təşkilatın bank rekvezitləri:**

**Təşkilat: Xızı Şəhər İƏD üzrə Nümayəndəlik**
**HESAB: AZ51CTRE00000000000002517032**
**VÖEN: 7800015151**
**BANK: Dövlət Xəzinədarlıq Agentliyi**
**KOD: 210005**
**VÖEN: 1401555071**
**M/H: AZ41NABZ01360100000000003944**
**SWIFT: CTREAZ22**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Tenderdə iştirak etmək üçün iddiaçılar aşağıdakı sənədləri təqdim etməlidirlər.

1. *Tenderdə iştirak etmək üçün yazılı müraciət.*
2. *Tenderdə iştirak haqqının bank sənədi.*
3. *Tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır).*
4. *Tender təklifi dəyərinin 1 ( bir) faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır).*
5. *Azərbaycan Respublikasında büdcə, bank, sosial sığorta və vergi öhdəliklərinin olmaması haqqında müvafiq vergi orqanından arayış.*
6. *İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının süräti.*
7. *İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri.*
8. *Sənədlər Azərbaycan dilində 2 nüsxədə ( əsli və surəti ) tərtib olunmalıdır.*

Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank zəmanəti istisna olmaqla) **09 iyul 2021-ci il saat 15:00-a** qədər tender təklifi və bank zəmanətini isə möhürlənmiş ikiqat zərfdə **19 iyul 2021-ci il saat 15:00-da** Portala təqdim etməlidirlər.

İddiaçıların təklifləri **22 iyul 2021-ci il saat 15:00-da** Portalda açılacaqdır.

***QEYD:*** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.*

***Tender komissiyası***

# ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin rəhbərliyi və kollektivi iş yoldaşları Məmməd Abbasbəyliyə atası

**ASLAN ABBASOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin kollektivi xidmətin rəis müavini Məmməd Abbasbəyliyə atası

**ASLAN ABBASOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Milli Məclisi Aparatının Dövlət quruculuğu, inzabati və hərbi qanunvericilik şöbəsindən Hacı Mirhəşim Seyid, Eldar Əsgərov, Aqşin Məmmədzadə, Tamerlan Şeyxzamanov, Sarvan Sadıqov, Kəmalə Paşayeva, Sədaqət Bağırova, Ramil Cəfərov, Mahir Süleymanlı, Samir Yusifov, Ramin Cəlilov, Fərid İsrafilov, Nəzrin Əliyeva, Mətanət Qəmbərova və Əfsanə Nəsirova Aparatın Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri Mehman Qaibova bacısı

**İRADƏ İSGƏNDƏROVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

"AzerGold" QSC-nin rəhbərliyi və kollektivi Dövlət Məşğulluq Agentliyinin İdarə Heyətinin sədri Mustafa Abbasbəyliyə atası

**ASLAN ABBASOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin rəhbərliyi və kollektivi Dövlət Məşğulluq Agentliyinin İdarə Heyətinin sədri Mustafa Abbasbəyliyə atası

**ASLAN ABBASOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev və AHİK-in kollektivi Milli Məclis Aparatının Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri Mehman Qaibova bacısı

**İRADƏ İSGƏNDƏROVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Sığortaçılar Assosiasiyasının rəhbərliyi və kollektivi Dövlət Məşğulluq Agentliyinin İdarə Heyətinin sədri Mustafa Abbasbəyliyə atası

**ASLAN ABBASOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Qurban Primov, Cəmil Nəsirov, Rövşən İsrafilov, Emil Mirzəzadə, Rüfət Cavadov, Rəşid Hüseynov və Alov Hüseynov Mustafa Abbasbəyliyə atası

**ASLAN ABBASOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Qəzetin daim yenilənən rəsmi internet ünvanı: www.azerbaijan-news.az


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 432-37-68, |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39, | Humanitar siyasət şöbəsi | - 538-56-60, 539-63-82 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 5179
Sifariş 1029
Qiyməti 40 qəpik